# KÜRD DÎPLOMAT

xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

www. Diplomata-kurdi.com

№ 31 (179), 13 - 19 Avqust, Tebax sal 2012
Ji meha şûbatê sala 2003-a tê weşandin

*Həftəlik İctimai-siyasi qəzet*
*Rojnama heftename civakî û siyasî*

Qiyməti: / Hêjaye: 40 qəpik


Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məscidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu



Səh. 2

## İlham Əliyev Londonda bp şirkətinin icraçı direktoru Robert Dadli ilə görüşmüşdür



Səh. 13

## 'Bexdayê şerê bi Kurdistanê re winda kir'



Səh. 16

## Rəsmi Bağdadın Əhməd Davudoğlunun Kərkük səfərini problemə çevirməsi yersizdir



Səh. 15

## Революционная операция в Шемдинли – это только начало



Səh. 15

## Делегация ЕС посетила офис внешних связей КРГ



Səh. 9

## Obama MKİ-yə Suriya müxalifətinə yardım göstərməyə icazə verib



Səh. 14

## Osman: Barzanî dixwaze ziyan negêhe kurdên rojava

## Müqtəda Sədr şiə və sünniləri vəhdətə çağırdı
Səh. 2

## İRAQ ORDUSU 27 KİLOMETR GERİ ÇƏKİLDİ
Səh. 3

## 1905-06-cı illərdə erməni-müsəlman davasında Kürd xalqının rolu
Səh. 8

## "Ərəb baharı"nın son dayanacağı Suriya deyil, növbədə Türkiyədir
Səh. 6

## Brüsseldə yeni koalisiyası yarandı
Səh. 9

## Mafê 35 milyon kurd heye ku dewleta xwe ava bike
Səh. 14



Səh. 5

## Suriya kürdləri yeni rolda



Səh. 9

## Sergey Lavrov: "ABŞ və Avropa terrora dəstək verir"



Səh. 12

## Türk xalqı Ərdoğandan hesabat istəməlidir



Səh. 7

## Klinton Türkiyəyə getdi

www.Diplomata-kurdi.com



# İlham Əliyev Londonda bp şirkətinin icraçı direktoru Robert Dadli ilə görüşmüşdür

Böyük Britaniyada işgüzar səfərdə olan Prezident İlham Əliyev Londonda bp şirkətinin icraçı direktoru Robert Dadli ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə bp şirkətinin uzun illər ərzində uğurla əməkdaşlığından məmnunluq ifadə edildi.

"Şahdəniz" yatağının işlənilməsi layihəsinin ikinci fazası və icra edilən digər layihələrin gedişi barədə fikir mübadiləsi aparıldı.

Görüşdə ölkəmiz ilə bp şirkəti arasında əməkdaşlığın bundan sonra da inkişaf etdiriləcəyinə əminlik bildirildi.

# Vasif Talıbov iftar verdi



Avqustun 10-da Naxçıvan şəhərindəki "Təbriz" restoranında iftar süfrəsi açılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisin sədri Vasif Talıbov iftar mərasiminə gəlib.Əvvəlcə "Qurani-Kərimdən" ayələr oxunub. Bildirilib ki, Azərbaycan xalqı müqəddəs ramazan ayının mənəvi üstünlüklərini əsrlər boyu yaşatmış, oruc tutmaq, iftar süfrəsi açmaq kimi yüksək dəyərlərə daim sədaqət göstərilib. Hər il Ramazan ayında Naxçıvan Muxtar Respublikasında da iftar süfrələri açılır.

Mərasimdə arzu və niyyətləri ifadə edən dualar oxunub. Oxunan dualarda əldə etdiyimiz müstəqilliyin əbədi olması, işğal altındakı torpaqlarımızın azad edilməsi və bu ərazilərdə də iftar süfrələrinin açılması, xalqımızın həmişə əmin-amanlıq və yüksək rifah şəraitində yaşaması ifadə olunub. Həmin gün Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserində, Psixi Xəstəliklər Dispanserində və Naxçıvan Qarnizonunun Hərbi Hospitalında da Ali Məclis sədri adından iftar süfrələri açılıb, ümumilikdə iftar mərasimlərində min nəfərdən artıq insan iştirak edib.

# İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeron ilə görüşmüşdür



Londonda işgüzar səfərdə olan Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeron ilə görüşmüşdür.

Prezident İlham Əliyevi Baş nazir Devid Kemeron qarşıladı.

Azərbaycan Prezidenti və Böyük Britaniyanın Baş naziri rəsmi foto çəkdirdilər.

Görüşdə Azərbaycan-Böyük Britaniya ikitərəfli əlaqələrinin yüksək səviyyədə olduğu vurğulandı. Qeyd edildi ki, Birləşmiş Krallıq ilə Azərbaycan arasında bir sıra sahələrdə, o cümlədən enerji, qeyri-neft sektoru sahələrində uğurlu əməkdaşlıq vardır və bu əlaqələrin perspektivləri böyükdür. Azərbaycan ilə Böyük Britaniya arasında beynəlxalq təhlükəsizlik sahəsindəki münasibətlərin də müzakirə olunduğu görüşdə ölkəmizin NATO və Əfqanıstandakı beynəlxalq koalisiyaya dəstəyi yüksək qiymətləndirildi.

Görüşdə regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# İraqın Kürd muxtariyyəti neft ixracını bərpa edib



İraqın kürd muxtariyyəti dörd aylıq fasilədən sonra mərkəzi hakimiyyətə neft ixracını bərpa edib. Trend-in məlumatına görə, bu barədə çərşənbə günü "əl-Cəzirə" telekanalı muxtariyyət hökumətindəki yüksək vəzifəli məmura istinadən məlumat verir. Məmur muxtariyyətin bu addımını kürd administrasiyasının xoş niyyətini əks etdirən jest kimi səciyyələndirib. O qeyd edib ki, neft ixracı gələn ay da davam etdiriləcək. Əgər Bağdad əvvəlki aylarda neftin ixracına görə kürd muxtariyyətinə ödəniş etməsə, neftin nəqli yenidən dayandırılacaq. Məlumata görə, Bağdadın neft ixracına görə kürd muxtariyyətinə 1,5 milyard dollar borcu var.

# "Məsuliyyəti Türkiyənin üzərinə atmaq istəyirlər"

## *<u>Əhməd Davudoğlu:</u> "Suriyada baş verən hadisələrin məsuliyyətini Türkiyənin üzərinə atmaq istəyirlər"*



Myanmada səfərdə olan Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu son günlər rəsmi Ankara ilə Tehran arasında yaşanan gərginliklə bağlı jurnalistlərin suallarını cavablandırıb.

Ə.Davudoğlu deyib ki, İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-mayor Seyid Həsən Firuzabadinin belə bir açıqlama ilə çıxış etməsi heç bir şəkildə və heç bir şərtlə qəbul oluna bilməz:

"Bizim ən çox narahat olduğumuz məsələ Suriyadakı hadisələrin məsuliyyətinin Türkiyənin üzərinə atılmasıdır. Bunu qəbul etməyimiz mümkün deyil. İki ölkə arasında fikir ayrılığı ola bilər. Amma Suriyada on minlərlə insanın ölümündə məsuliyyət daşıyan rəhbərliklə əlaqəni davam etdirəcək, onlara dəstək verəcək, sonra da qayıdıb Türkiyəni təhdid edəcək? Bunun səmimiyyətlə, dürüstlüklə əlaqəsi yoxdur".

***xezerxeber.com***

# Müqtəda Sədr şiə və sünniləri vəhdətə çağırdı



"Mehdi" ordusunun rəhbəri Müqtəda əs-Sədr: "İraqdakı şiə, kürd və sünni əlaqələrinin düzəlməsi lazımdır".

Suriyada hakimiyyəti devirmək üçün məzhəb qarşıdurmasından istifadə edən Qərb, bu yolla həm müsəlmanları parçalayır, həm də istəmədiyi prezidenti istefaya göndərməyə çalışır. Suriyada yerli müxaliflər kimi qələmə verilən şəxslər hazırda vəhhabi qruplaşmaların üzvləridir ki, onlar da məhz etnik qarşıdurma yaradaraq Suriyada xaos yaradırlar. Yaxın Şərqdə baş verən məsələlərə münasibət bildirən "Mehdi" ordusunun rəhbəri Müqtəda əs-Sədr, ölkəsi ilə bahəm Suriyada da etnik və məzhəb müharibəsinin başlayacağı ilə bağlı xəbərdarlıq edib.

Qeyd edək ki, İraqı qarşıdurmaların mərkəz nöqtəsi kimi görən Müqtəda əs-Sədr, bölgədə döyüşlərin davam edəcəyi təqdirdə etnik və məzhəb qarşıdurmalarının yaranacağını söyləyib. "İnsanlar arasında birlik və bərabərlik İraqdan başlamılıdır. İraqdakı şiə, kürd və sünni əlaqələrinin düzəlməsi lazımdır. İraq xalqı buna nail olsa, onda ölkəni müharibədən xilas edə biləcək"-deyə Müqtəda əs-Sədr əlavə edib.

***faktxeber***

# Amerikalı konqresmen: "ABŞ Cənubi və Şimali Azərbaycanın birləşməsini dəstəkləməlidir"

## Deyn Rorabaher məsələnin vacibliyinə diqqət çəkib

Amerikalı konqresmen Deyn Rorabaher Vaşinqtonu cənubi azərbaycanlıların müstəqillik uğrunda mübarizəsini dəstəkləməyə çağırıb. O, dövlət katibi Hillari Klintona məktubunda Cənubi Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin dəstəklənməsinin vacibliyini bildirib. Bu barədə Turan-ın Vaşinqton müxbiri məlumat yayıb.



"Konqresmenin məktubu İsraillə Azərbaycan arasında hərbi əməkdaşlıq haqqında məlumatların nəticəsidir", – konqresmenin ofisinin nümayəndəsi məktubu Turan-a belə şərh edib.

"ABŞ ya belə əməkdaşlığı ya da ümumi düşmənimiz olan Tehranın tiran rejimini dəstəkləməlidir", – eyni zamanda Nümayəndələr Palatasının xarici məsələlər və təhqiqatlar üzrə alt komitəsinin sədri olan konqresmenin məktubunda deyilir.

"İki yüz il əvvəl Azərbaycan xalqı coğrafi baxımdan iki yerə bölünüb və azərbaycanlıların çoxu Vətənin birləşməsinə çağırır", – məktubda qeyd olunur. Konqresmen həmçinin bildirir ki, İranda etnik azərbaycanlıların sayı Azərbaycan Respublikasında olduğundan iki dəfə çoxdur. "Bu ölkə 1991-ci ildə SSRİ-nin süqutundan sonra müstəqillik qazanıb. İndi də İran azərbaycanlılarının öz azadlıqlarına nail olmasının vaxtı çatıb", – konqresmen yazıb.

"Müstəqillik uğrunda mübarizədə Azərbaycan xalqının qanuni haqlarının dəstəklənməsi özlüyündə nəcib əməldir. Eyni zamanda bu, Tehran üçün daha böyük təhlükədir, nəinki onun yeraltı nüvə bunkerlərinin bombalanması", – məktubda vurğulanır.

**rst.az**

# İRAQ ORDUSU 27 KİLOMETR GERİ ÇƏKİLDİ

FaktXeber.com-un verdiyi məlumata görə, İraq dövləti ilə kürd peşmərgələr arasında əldə olunan razılaşmaya əsasən, yerli ordu əsgərlərini 27 kilometr geri çəkib. Bu barədə ictimaiyyətə İraq Kürd Regional Rəhbərliyinin rəsmisi Cabbar Yavər məlumat verib. Verilən məlumata görə, ABŞ-ın vasitəçiliyi ilə peşmərgə rəsmiləri və İraqın ordusunun nümayəndələri arasında Bağdadda dünən gecə toplantı olub.



Qeyd edək ki, təxminən 2 saat davam edən toplantıdan sonra 7 maddəlik razılaşma əldə olunub. Cabbar Yavər mövzu ilə bağlı bildirib ki: "İraq hökuməti, ordu qüvvələrini 10 gündür müzakirəsi gedən Mahmudiyə şəhərindən Mosula doğru 27 kilometr geri çəkib. Hər iki ordu bundan sonra Suriya sərhədini qorumaq üçün birlikdə hərəkət edəcək."

# ABŞ-IN BÖYÜK İRAN PLANI

## *Rəsmi Vaşinqton yenə kağız üzərində İrana hücum edir*




FaktXeber.com-un verdiyi məlumata görə, ABŞ dövləti İrana qarşı sanksiyalar tətbiq etməklə müvəffəqiyyət qazanmazsa, onda bu ölkəyə hərbi müdaxilə edəcək. Bu iddia ilə İsrailin "Maariv" və "Yedioth Ahronoth" qəzetləri çıxış edib. Hər iki qəzet tərəfindən dərc olunan məlumatda, ABŞ-ın böyük İran planı 4 maddədən ibarət sənəd kimi göstərilib.

Qeyd edək ki, iddiaya görə ABŞ İrana qarşı hücum edərsə aşağıdakı hərbi planlardan istifadə edəcək:

1. ABŞ-ın İrana qarşı hücumu yüzlərlə "Cruise" roketlərinin atılmasıyla başlayacaq. Roketlərlə əsasən nüvə stansiyaları və hərbi bazalar vurulacaq.

2. "Cruise" mərmilərindən sonra İran hava müdafiə sistemi təyyarələr tərəfindən bombalanacaq. Liviyada Müəmmar Qəzzaafiyə aid ordunun hava müdafiə sahəsini iflic edən "B-52" bombardman təyyarələri, İran hərbi bazalarına bomba yağdıracaq.

3. İrandan gələcək reaksiyalar nəticəsində hücumların davamına qərar veriləcək.

4. ABŞ rəhbərliyi, rəsmi Tehrana ultimatom verərək hərbi sahədə nüvə fəaliyyətlərinə son verməsini istəyəcək.

Məlumat üçün bildirək ki, eksperlər İsrail qəzetlərinin İrana qarşı son hücum planına həmişəki kimi "blef" olaraq baxır. İrana hərbi müdaxilə etməyə cürəti çatmayan rəsmi Vaşinqton, müxtəlif ölkələrdəki qəzetlərdə İran planı adlı məqalələr dərc etdirərək, bu ölkəni təzyiq altında saxlamaq istəyir. İran ordusunun malik olduğu hərbi, hava və quru texnika, bundan əlavə hərbçilərin müharibə aparmaq əzmi ABŞ-ın İranla müharibə etməyini kölgə altına salır.

***Azad Əhməd***

# REUTERS: SURİYA MÜXALİFƏTİ KİMYƏVİ SİLAHLARLA TƏCHİZ OLUNUB

## *Onlara bu silah Liviyadan göndərilib*

FaktXeber.com-un "əl-vəhdət" saytına istinadən verdiyi məlumata görə, ötən gün İngiltərənin "Reuters" agentliyi Suriyalı müxaliflərin o cümlədən xarici muzdurların kimyəvi silaha malik olduqları barədə xəbər yayıb. Amma nədənsə çox keçmədən bu agentlik dərc etdiyi xəbəri tez bir zamanda öz internet səhifəsindən silib. Bu artıq agentliyin 3 gün ərzində sildiyi ikinci xəbəridir. Məlumat agentliyin ingilis dili bölməsində yerləşdirilmişdi. Reutersin İordaniyadakı müxbiri Xalid Uvəys bununla bağlı agnetliyə danışarkən deyib: "Məlumatlarda bildirilirdi ki, Qəzzafinin kimyəvi bombaları məhv edilib. Amma Suriya müxalifətinin bu silahlardan istifadə etməsi deyilənlərin əksini sübut edir". Agentlik həmçinin təkfirçi-vəhhabilərin əlində ABŞ-dan göndərlimiş "M-42A1" tipli əleyhqazın olmasını deyilənlərə sübut kimi dərc etmişdi.




Əl-vəhdət saytının yazdığına görə, bu silahların Suriyaya gətirilməsindən məqsəd onlardan istifadə edərək rəsmi Dəməşqi kütləvi qırğın silahlarından istifadədə günahlandırmaqdır. Bundan öncə də Suriya Xarici İşlər Nazirliyinin sözçüsü Cihad əl-Məqdəsi müxaliflərin kimyəvi və zəhərli silahlardan istifadə etdikləri barədə açıqlama vermişdi.



# Rəsmi Bağdadın Əhməd Davudoğlunun Kərkük səfərini problemə çevirməsi yersizdir

Şimali İraq Kürd Administrasiyasnın baş naziri Neçirvan Bərzani Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlunun Kərkük səfəri ilə bağlı açıqlama verib.

SalamNews-un "Ankara" agentliyinə istinadla verdiyi xəbərə görə, o bildirib ki, Ə.Davudoğlu İraq tərəfindən verilən və ölkənin hər hansı bir vilayətinə getməkdə məhdudiyyət qoyulmayan viza ilə Kərkükə səfər edib: "Davudoğlu Şimali İraq səfərini diplomatik pasportuna İraq tərəfindən vurulan viza ilə reallaşdırıb. Bu viza isə İraqın hər hansı bir bölgəsinə səfər etməyə məhdudiyyət qoymur. Kərkükü Bağdad və ya Ərbil kimi, İraqın bölgələrindən biri olaraq qəbul edirik. Rəsmi Bağdadın bu mövzunu problemə çevirməsi yersizdir, səhvdir".

# Vaşinqtonla Ankara Suriya üsyançılarına yardım planını nəzərdən keçirir



Birləşmiş Ştatlarla Türkiyə Suriya üsyançılarına yardım etmək üçün uçuşlar üçün qadağan zonası yaradılması və digər tədbirlərin mümkünlüyünü nəzərdən keçirirlər. Bunu ABŞ Dövlət katibi Hillary Clinton bu gün İstanbulda Türkiyənin xarici işlər naziri. Ahmet Davutoğlu ilə görüşdən sonra bəyan edib.

Hillary Clinton qeyd edib ki, Suriyada zorakılıqların mümkün qədər tez dayandırılması və Prezident Bashar Assad rejiminin getməsinin tezləşdirilməsi Ankara ilə Vaşinqtonun qarşısında duran ümumi strateji tapşırıuqlardan biridir. O eyni zamanda bildirib ki, Suriya Türkiyədə fəaliyyət göstərən kürd separatçılarının sığınacağına çevrilməməlidir. Ahmet Davıtoğlu isə beynəlxalq aləmi Suriyadakı hümanitar böhranın yoluna qoyulmasında yaxından iştirak etməyə çağırıb. Hazırda Türkiyədə 10 minlərə Suriya qaçqını var.

# Suriyada toqquşmalarda bir gün ərzində 176 nəfər öldürülüb



Bir gün əvvəl Azad Suriya Ordusu və hökumət qoşunları arasında baş verən toqquşmalarda ən azı 176 nəfər ölüb. Bu barədə Trend çərşənbə axşamı "Əl-Cəzirə" telekanalına istinadən məlumat verir. Ölənlər arasında xeyli sayda qadın və uşaq var. Ölənlərin əksəriyyəti Dəməşq, Hələb və Dir əz-Zur şəhərlərinin sakinləridir.

***Trend***

# Əsəd ağır silahlarını PKK-ya təhvil verir



Suriyanın PKK-ya dəstəyinə dair daha bir iddia səslənib. Bir aydır Türkiyədə olan Xums İnqilab Şurasının sözçüsü Xalid Əbu Salah Bəəs rejimiylə terror təşkilatının birlikdə çalışdığını deyib. Salah qeyd edib ki, bunun ən göyük göstəricisi Kandildən 4 min silahlı enərək Suriyadakı kürd bölgəsinə getməsidir: "Burada birlikdə hərəkət edirlər".

İnqilab Şurasının kürd bölgəsindəki hadisələri yaxından izlədiyini vurğulayan Əbu Salahın verdiyi məlumata görə, Əsəd rejimi siyasi ittihamlarla həbs edilən 1200 kürd azadlığa buraxıb. Bundan əlavə, kürd bölgəsində həbsdə olan 3 minə yaxın məhkum da azad edilib. Əbu Salah həbsdən çıxarılanların Afrindən Derikə qədər olan bölgəyə yerləşdirildiyini bildirib.

Qeyd edək ki, 1998-ci ildə terror təşkilatının rəhbəri Abdulla Öcalanın Suriyadan çıxarılmasıyla nəticələnən prosesdə imzalanan Adana sazişinə uyğun olaraq Dəməşq kürdlərə qarşı geniş miqyaslı həbslər həyata keçirmişdi.

Əsədə bağlı birliklər Suriyanın şimalındakı Afrin və Kobanidən çəkilərkən ağır silahları PKK-ya təhvil verib. Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının sədr müavini Ömər Çelik bu haqda dəqiq məlumatlara sahib olduqlarını söyləyib. Adana hava limanında jurnalistlərin suallarını cavablandıran Çelik Hakkaridə terror aktları törədən PKK-ya silahları Suriyanın verdiyinə dair iddialara münasibət bildirərkən terror təşkilatının Şəmdinliyə etdiyi hücumun indiyə qədərki hücumlarından fərqli miqyasda və məzmunda olduğunu deyib. PKK-nın açıq şəkildə Şəmdinlidə, müəyyən bir bölgədə hökmranlığını təmin etməyə çalışdığını deyən AK Partiya yetkilisi bunları söyləyib: "Ən azından bir neçə gün də olsa orada özünə görə hakimiyyət qurduğuna dair mesaj verməyə çalışdı. Bundan əvvəl isə Əsəd qüvvələri Suriyanın şimalında Afrin və Kobanini də, oradakı ağır silahları da PKK-ya verib. PKK-nın orada toplanması, gətirdiyi silah-sursar və orada olan kürdlərin sayına baxıldığı zaman bunun arxasında başqa bir təşkilatçılığın olduğu görünür. Bunun beynəlxalq miqyasını gözdən yayındırmaq üçün deyirlər ki, PKK indiyə qədər dəfələrlə hücum edib, bu hücum da onlardan biridir. Doğrudur, dəfələrlə hücum edib, amma 1991-1994-cü illərdə Səddam Hüseynin verdiyi silahlardan istifadə edirdi, oradakı xaosdan yararlanırdı".

PKK-nın indi özünü "ərəb baharı"nın davamı kimi göstərməyə çalışdığını bildirən Çelik qeyd edib ki, terror təşkilatının bölgə xalqlarının legitim tələbləri ilə heç bir əlaqəsi yoxdur: "PKK-nın tələbləri olsa-olsa bölgədəki diktatorluqlarla eyni səviyyədə dəyərləndirilə bilər".

Bu arada PKK-çılar Diyarbəkirdə 3 əsgəri qaçırıb. PKK-çılar Lice-Bingöl avtomobil yolunu kəsərək, Trabzona gedən sərnişin avtobusunu saxlayıblar. Daha sonra isə PKK yaraqlıları avtobusda olan 3 əsgəri düşürərək özləri ilə aparıblar. Qeyd edək ki, əsgərləri xilas etmək üçün bölgədə havadan və qurudan əməliyyat başlanılıb. Hadisə ilə bağlı avtobus sürücüsünün və sərnişinlərin ifadəsi alınıb.

Dünən daha bir hadisə barədə məlumat verilib. Məlumatda bildirilir ki, Türkiyə ordusunun 12 hərbiçisinin Suriya sərhədlərini pozaraq Hələb şəhərinə getmək istərkən yerli əhali tərəfindən yaxalanaraq aidayatı orqanlara təhvil verilib.

***ucnoqta.az***

# KCK öz pulunu çıxarmağa hazırlaşır

## TƏQDİMAT ABDULLAH ÖCALANIN AD GÜNÜNDƏ





KCK tərəfindən önümüzdəki günlərdə tanıdılacaq pulun ön üzündə Şeyx Səid, arxa üzündə isə Musa Anterin rəsmi var

Dəməşqdə nümunə olaraq çıxarılan 'Kürdüstan Muxtariyyəti pulunun ön üzünə 1925-ci ildə edam edilən Şeyx Səid, arxa üzünə də 1992-ci ildə faili məchul bir cinayətdə öldürülən Musa Anterin rəsmi var. Kəşfiyyat qaynaqları, KCK-nın, Dəməşqdə ilk pul nümunəsini də çıxardığını və pulun təbliğat məqsədli istifadə ediləcəyini qeyd edir.

KCK-nın 'Kürdüstan Muxtariyyəti pulunu Türkiyədə şərq bölgələri başda olmaq üzrə İraq , İran və Suriyada yaşayan Kürdlərə istifadə etdirməyi qarşılarına məqsəd qoyduqları yazılır. Qrşıya təbliğat məqsədini qoyan təşkilat, pul çıxarma qərarını da, 25 May 2007-ci ildə Kongra-Gel tərəfindən təsdiqlənərək "qüvvəyə" minən KCK konstitusiyasına istinad edir. Kəşfiyyat qurumları pul çıxarma əməliyyatının davam etdiyini, nümunələrin hazırlanaraq əlaqədar qurumlara göndərildiyini ifadə edir. Kəşfiyyat qeydində pulun təqdimatının da Öcalanın 14 Apreldəki ad günündə edilməsinin planladığı qeyd edildi.

Təşkilatının 'pul çıxarma' cəhdinin təbliğat məqsədli olduğu ifadə edilərkən, bu cəhdin 2014-cü ildə edilməsinin hədəfləndiyi, ancaq terror tşkilatı ilə əlaqəli olduğu düşünülən şəxs və təşkilatların mal varlıqlarını dondurmağa yönəlmiş addımların ardından tezləşdirildiyi yazılır.

***Milliyyət***



# "Ərdoğan İsrail ilə eyni sıradadır"

## *Türkiyə Partiyası lideri Əbdüllətif Şener, Suriya hadisələrinin arxasında böyük İsrail dövlətinin yaradılması olduğunu qeyd edib*

Türkiyə Partiyası lideri Əbdüllətif Şener, Suriya hadisələrinin arxasında böyük İsrail dövlətinin yaradılması olduğunu qeyd edərək bildirib ki, bu gün Ərdoğan, Suriya mövzusunda Mossa və İsrail rejimi ilə eyni sırada mübarizə aparır.

Partiyasının iftar süfrəsində iştirak edən Şener, Suriyadakı hadisələrin hədəfində rəhbərlik dəyişikliyi olmadığını deyib: "Hadisələrin kökündə, Suriyanı parçalamaq, Hizbullahı və Həması məhv etmək dayanır. Suriyada baş verən qarşıdurmalardan məqsəd, böyük İsraili dövləti yaratmaqdır. Türkiyə apardığı siyasətlə bölgədə fikirləri dəyişmək istəyir. Ərdoğan, Suriyada baş verənləri hakimiyyət dəyişikliyi kimi qələmə vermək üçün çıxışlar edir. İsrail və Qərb dövlərlərinin istədiyi Suriyada rəhbərlik dəyişikliyi deyil. Suriyanın parçalamaqdır.

***faktxeber***

# SURİYADA TÜRKİYƏLİ GENERAL ƏLƏ KEÇİRİLİB



FaktXeber.com-un verdiyi məlumata görə, İranın "Fars" xəbər agentliyi, Suriyanın Hələb şəhərində suriyalı müxaliflərə rəhbərlik edən türk generalın ələ keçirildiyini yazıb.

Agentlik yaydığı məlumatda bildirilir ki, türk general ələ keçirilməsi xəbərini Suriya ordusu verib. Qarşıdurma əsnasında ələ keçirilən türk general, istintaq üçün üçün Hələbdən paytaxt Dəməşqə göndərilib. Türkiyəli generalın kimliyi barədə isə açıqlama verilməyib. Məlumatda həmçinin qeyd edilib ki, qarşıdurmalara əsnasında 40 türk əsgəri həbs olunub. Türkiyə, ABŞ, Səudiyyə Ərəbistanı və Qətərlə birlikdə Suriyadakı terrorist və üsyançı qrupları dəstəkləyir. Türkiyə Xarici İşlər Nazirliyindən mövzu ilə əlaqədar heç bir açıqlama verilməyib.

# İngiltərədən müxalifətçilərə hədiyyə



İngiltərə hökuməti suriyalı müxalifətçilərə nəqliyyat vasitələri və tibbi ləvazimatlar almaq üçün yardım edəcək. Publika.Az-ın məlumatına görə, hökumət 5 milyon sterlinq məbləğində ediləcək yardımın silah alınmasına sərf olunmayacağını bildirib. İngiltərə xarici işlər naziri Uilyam Haq isə "Tayms" qəzetinə yazdığı məqaləsində Əsədin devriləcəyi gün üçün Azad Suriya Ordusunun siyasi qanadı ilə əlaqələrini intensivləşdirəcəklərini bildirib. Haq görüşlərdə suriyalı müxalifətçilərin beynəlxalq insan hüquqları standartlarına əməl etməsinin müzakirə olunacağını deyib.

# Suriya kürdləri yeni rolda

Qabil Hüseynli: “Suriyadakı kürdlər İraqdakı soydaşlarından qat-qat təhlükəlidir”.

Artıq Suriyadakı rejim öz ömrünü başa vurmaqdadır. İndi əsas məsələ Suriyada hansı qüvvələrin hakimiyyətə gələcəyi, Qərbin yeni Suriya ilə bağlı planlarıdır. Hazırda bu aspektdə diqqəti çəkən məsələlərdən biri isə Suriyada kürdlərin fəallaşmasıdır. Belə ki, PKK-nın Suriya qanadı artıq Türkiyə ilə sərhəddəki rayonları öz nəzarəti altına alıb. Digər tərəfdən, İraqdakı kürd muxtariyyətinin lideri Bərzani də tərəfdarlarını Suriyaya göndərərək Kürd Hərəkatını dəstəkləməkdədir. Doğrudanmı, bölgədə yeni kürd dövləti yaranır? Suriya hadisələrində fəal mövqe sərgiləyən Türkiyə nədən bu məsələdə qeyri-müəyyən mövqe tutur.



Politoloq Qabil Hüseynlinin sözlərinə görə, Türkiyə bölgədə baş verən proseslərdə əsas söz sahibi olsa da, həlledici məqamlarda yol verdiyi səhvlər bu ölkənin milli maraqlarına ciddi zərbə vurur: “İraq məsələsi zamanı da belə oldu. Türkiyə parlament qərar çıxardı ki, Amerika qoşunları İraqa Türkiyə ərazisindən girə bilməz. Bu isə Amerika üçün çox böyük təhqir idi. Hətta Amerika Türkiyəyə ərazisindən istifadəyə görə 50 milyard dollar pul da vəd etmişdi. Bu qədər xərc çəkildikdən sonra qoşunları geri çəkmək, “A” planını “B” planı ilə əvəz etmək zərurəti meydana çıxdı.

Halbuki prezident, baş nazir, hətta Silahlı Qüvvələrin baş qərargah rəisi tərəfindən ABŞ-la Türkiyə arasında İraqla bağlı bütün məsələlər detallarına qədər razılaşdırılmışdı. Ancaq Türkiyə parlamentinin qərarından sonra Amerika çox biabırçı şəkildə öz qoşunlarını Türkiyə ərazisindən geri çəkməyə başladı, iki ölkənin münasibətləri hədsiz dərəcədə pisləşdi. Amerika daha sonra “B” planını işə saldı və bu planda birinci yeri kürdlərə verdi. Nəticədə İraq alındı. İraqdakı kürdlərin sayı cəmi 5 milyon nəfərdir. Elə Kərkük kürdlərinin də sayı 5 milyona bərabərdir. Ancaq bu gün İraqın prezidenti kürddür. İraq parlamentində 53 nəfər deputat kürddür. İraq xarici işlər naziri, ekologiya naziri, ticarət naziri də kürddür. Bu isə onu deməyə əsas verir ki, kürdlər İraqın həyatında önəmli rol oynayırlar. Bərzani Kərkükü özünə tabe edərək İraqın şimalını ələ keçirərək muxtariyyətini elan edib. Əslində, isə tam müstəqillik atributları olan bir dövlət qurub”.

Qabil Hüseynlinin sözlərinə görə, indi də Suriyada buna bənzər proseslər gedir: “Türkiyə ilə problemlərin yaranması üçün Suriyadakı kürdlərin sıx yaşadığı ərazilər kürdlərə təhvil verilir. Kürdlər də dərhal həmin yerləri PKK-nın Suriya qanadına verir. Ən xoşagəlməz hadisə isə odur ki, Türkiyənin müdafiə etdiyi Bərzani indi öz ərazisində PKK-nın Suriya qanadına daxil olan əsgərlərə hərbi təlimlər keçir və onları yenidən döyüşə göndərir. Həmin kürdlər Amerikanın rəğbətini qazanmaq üçün



dəridən-qabıqdan çıxırlar. Yeri gəldikdə isə özlərini müdafiə edərək, “biz sadəcə, Azad Suriya ordusunun əsgərlərinə təlim keçərək silahla yardım edirik”, deyirlər”.

Qabıl Hüseynli hesab edir ki, getdikcə Suriyada qorxunc bir mənzərə yaranır: “Belə ki, bir tərəfdən də əl-Qaidə tərəfdarları Suriyanın bəzi bölgələrini zəbt edərək orada öz bayraqlarını qaldırırlar”.

Bəs, ABŞ suriyalı kürdlərin Bərzani ilə birləşməsinə, muxtariyyət yaratmasına və nəticə etibarilə Suriyanın parçalanmasına dəstək verəcəkmi?

Politoloqun fikrincə, ABŞ Suriyanın parçalanmasını istəmir: “Amma Amerika hər zaman belə ölkələrin daxilində muxtariyyət yaranmasına rəvac verən bir ölkədir. Amerika müstəqil kürd dövlətinin yaranmasını istəmir, ancaq ayrı-ayrı dövlətlərin daxilində geniş səlahiyyətli, yüksək statuslu qurumların yaranmasına dəstək verir. Hələ ki, Suriya mövzusunda ABŞ öz rəyini bildirməsə də, gec-tez bu cür mövqe tutacaq. Çünki proseslər başlayanda ABŞ Suriya ilə bağlı kəskin mövqe bildirdi. İlk olaraq mühacirləri qəbul etsə də, iki ordunu birləşdirmək istəyirdi. Ancaq Suriya ordusu ilə Azad Suriya Ordusunun birləşdirmək prosesi intensiv şəkildə getmədi. Suriyada İraqdakı qədər kürd məskunlaşmasa da, buradakı kürdlər əsasən, PKK üzvləridir. Buna sübut kimi bir məqamı da qeyd edə bilərik. Bu vaxtilə Öcalanın düşərgəsinin Suriyada yerləşməsidi. Bu mənada Suriyadakı kürdlər İraqdakı kürdlərdən qat-qat təhlükəlidir. Onlar Müstəqil Birləşmiş Kürdüstan haqqında açıq danışmağa başlayıblar. Bu prosesi dayandırmaq üçün isə Türkiyə mütləq aktiv fəaliyyətə başlamalıdır. Bununla bağlı rəsmi Ankara Suriya Azadlıq Ordusuna ciddi dəstək verməlidir, çünki o ordunu ərəblər təşkil edir”.

Qabıl Hüseynli hesab edir ki, Türkiyə Suriyanın ərazi bütövlüyü və hadisələrin gedişatını Qərb və digər dövlətlərlə məsləhətləşərək razılaşdırmalıdır: “Təəssüf ki, Suriya Milli Şurasının ərəb mənşəli rəhbəri uzaqlaşdırılaraq onun yerinə kürd kökənli rəhbər gətiriləndə Türkiyə buna heç bir müqavimət göstərmədi. Türkiyə bundan sonra çalışmalıdır ki, Suriya müxalifətini birləşdirə bilsin. Kürdlər nə qədər çalışsa da, Suriyadakı əraziləri parçalayaraq İraqdakı Kürdüstana birləşdirə bilməyəcəklər”. Politoloq Türkiyə baş naziri Rəcəb Teyyub Ərdoğanın belə məqamlarda səhvə yol verdiyini də iddia edir: “Ərdoğanın səhvlərindən biri də İsraillə münasibətləri gərginləşdirməkdir. Çünki bu cür gərgin münasibətdən Türkiyə qazancla çıxmadı. Əgər Türkiyə İsraillə normal münasibətlərdə olsaydı, bu gün onlar Yaxın Şərqin planını birlikdə cıza bilərdilər”.

“Hazırda kimyəvi silahlara malik olan Bəşər Əsəd irimiqyaslı döyüşlərə başlayıb. Sizcə, prosesin gedişatı necə olacaq” sualına isə Qabil Hüseynli belə cavab verdi: “Proses artıq başa çatmaq üzrədir. Kimyəvi silah məsələsi isə həddindən artıq şişirdilir. Çünki Suriya elə də böyük həcmdə kimyəvi silaha malik deyil. Bəşər Əsədin sonuna gəlincə, inandırıcı görünən onun hazırda Tarsusdakı rus gəmisində gizlənməsi və oradan Suriyanı idarə etməsidir. Çünki onun ətrafından qaçışlar həddindən artıq çoxalıb”.

**Teleqraf.com**

# Suriya Türkiyəni ittiham etdi



Suriya ölkədə 17 aydır davam edən qarşıdurmalar səbəbi hesab etdiyi Türkiyəyə ağır ittihamlar səsləndirib. Suriyanın BMT-dəki daimi nümayəndəsi Bəşər Cəfəri təşkilatın Təhlükəsizlik Şurasına ünvanladığı məktubda bildirib ki, ABŞ, Səudiyyə Ərəbistanı və Qətər Türkiyədəki mərkəzlər vasitəsilə suriyalı üsyançıları idarə edir. Əsəd əleyhdarlarına kəşfiyyat və hərbi dəstək verirlər.

Diplomat Türkiyə və digər ölkələri silahlı terror qruplarını qorumaq, hazırlamaq və silahlandırmaqda günahlandırıb. Məktubda yazılıb ki, Türkiyə sərhədləri daxilində İsrail rejimi, ABŞ, Səudiyyə Ərəbistanı və Qətərin kəşfiyyat xidmətlərinin idarə etdiyi hərbi əməliyyat mərkəzləri qurulub. Bu mərkəzlər terrorçuların Hələbdə və digər şəhərlərdə Suriya vətəndaşlarına qarşı hücumları idarə edir. Cəfəri ABŞ, Fransa, İngiltərə və Türkiyəni bölgənin sabitliyini dəyişdirməyə və ətraf ölkələri Qərbin hegemonluğuna boyun əydirməyə çalışdığını yazıb.

**azadliq.az**

# Türk ordusu Suriyaya girdi



Suriyada yaşanan olaylar üzündən sərhəddə gücləndirilmiş hərbi rejimə keçən Türkiyə Şanlıurfada əsgərlərinin sayını artırıb.Bəzi xəbərlərə görə, Türkiyə helekopterləri bu gün səhər Suriyanın Kürd bölgəsinin Kobani adlanan əyalətinə girib.

“Vatan” qəzetinin xəbərinə görə, Azad Suriya Ordusunun nəzarətində olan Kerablus kəndinə girən türk əsgərləri Süleyman Şah Türbəsinə çatıblar.

1921-ci ildə Fransa ilə Türkiyə arasında imzalanan Ankara Andlaşmasına görə, Türkiyənin ərazisi sayılan qala və məscidlər Türk əsgərləri tərəfindən qorunur. **xezerxeber.com**

# “Azad Suriya Ordusu”nun ən güclü dəstəsi Hələbə girdi



300 üsyançıdan ibarət qruplaşma şəhəri Əsəd qüvvələrindən təmizləməyi qarşıya hədəf qoyub. “Azad Suriya Ordusu”nun ən güclü və ən böyük qolu olan “Liva əl-Təvhid” qruplaşması hökumət qüvvələrinə qarşı əks hücuma keçmək üçün Hələb şəhərinə daxil olub. 300 nəfərlik qruplaşma Homsdan sonra indi də Hələbdəki üsyançılara dəstək vermək üçün namaz qılıb dua etdikdən sonra silahlanaraq Hələbə girib. Üsyançıların bəziləri qələbə andı içərkən göz yaşlarına hakim ola bilməyib.

“Liva əl-Təvhid” qruplaşmasının lideri Yusif Sabah əbu-Səlmo qarşıda onları gözləyən döyüşlərin əhəmiyyətini belə izah edir: “Bizim hədəfimiz Əsədi hakimiyyətdən devirməkdir. Bunu etməyə gücümüz var. Ancaq Hələb sakinləri bizim üçün çox önəmli olduğundan, burada öz gücümüzü tam göstərə bilmirik. Hələbə və Hələb sakinlərinə ziyan dəyməsini istəmirik. Ancaq buna baxmayaraq, birlik və sabitliyi bərpa etmək üçün Hələbi alacağıq. Əsəd əsgərlərini, Əsədə kömək edənləri buradan təmizləyəcəyik. Ən böyük hədəfimiz isə Əsədi devirdikdən sonra mədəni və islam ölkəsi olan bir dövlət qurmaqdır”.

**rst.az**

# “Ərəb baharı”nın son dayanacağı Suriya deyil, növbədə Türkiyədir

## Türkiyənin Yaxın Şərq üzrə araşdırmaçıları “Bizim Yol”a danışdılar

Suriyadakı vəziyyət hər keçən gün daha da gərginləşməktədir. Türkiyənin hadisələrlə bağlı mövqeyi, kürd qruplaşmalarının yaranmış vəziyyətdən istifadə etmək cəhdləri, İranın probleme yanaşması və bununla bağlı hadisələrin yaxın gələcəkdə necə cərəyan edəcəyi diqqət mərkəzindədir. Bu və digər məsələlərlə bağlı Türkiyənin tanınmış strateji araşdırma mərkəzlərindən olan “21-ci sər Türkiyə İnstitutu”nun mütəxəssiləri Sibel Kalemdaroğlu və Hakan Bozla söhbət etdik. Həmin söhbəti bəzi ixtisarlarla təqdim edirik. Qeyd edək ki, Sibel Kalemdaroğlu sözügedən mərkəzin Orta Şərq Bölməsinin (Ortadoğu Bölümü) Hakan Boz isə Cənubi Qafqaz-İran-Pakistan Bölməsinin (Güney Kafkasya-İran-Pakistan) araşdırmaçı eskpertidir.

***Bizim Yol: Türkiyənin qonşuluğunda - Suriyada hər gün qətliam baş verir. Diktator Əsədə bu qədər qırğın törətməyə hələ də izn verilirsə, ona Qəddafidən daha acınacaqlı bir “mükafat” hazırlamış olarlarmı?***

S. Kalemdaroğlu: Suriyada Liviya ssenarisinin yaşanmamasının səbəbi Rusiya və Çinin BMT-də Suriyaya qarşı sərt qərarlara mane olmasıdır. Bu iki dövlət indiyədək Əsəd rejiminə qarşı 3 qərara veto qoyublar. Yoxsa Suriyaya böyük ölçüdə Qərb müdaxiləsi baş verə bilərdi. Amma son günlərdə xüsusilə Qərb mətbuatında Suriyadakı daxili müharibələr və çaxnaşmaların əngəllənməsi üçün Qərbi hərəkətə gəlməyə çağıran fikirlər güclənir. Bu isə sadəcə Rusiya və Çinin mövqeyini dəyişdirməsi nəticəsində mümkün ola bilər.

Suriya, istər Qərb üçün son dərəcə mühüm ölkə olan İsraillə qonşu olması, istər daxili savaşın Livana sıçrama ehtimalı, istərsə də digər qonşusu İraqdakı vəziyyəti daha da gərginləşdirməsi baxımından, Liviyadan daha həssas durumdadır. Digər tərəfdən, Suriya müxalifətinin hələ də tam bir araya gələ bilməməsi və rejimə dəstəyin güclü olaraq qalması, bu ölkəni Liviyadan fərqləndirir.

Ayrıca, indiyədək Suriyaya kənar müdaxilə üçün beynəlxalq vəziyyət imkan verməyib. Bundan sonra da ancaq şərtlə dəyişərsə, mümkün ola bilər. Bunun üçün Rusiya Əsədin yerinə gələcək şəxslə bağlı razılıq verməli və bu ölkədə, keçid hökuməti qurula bilər. Bu məqamda Suriya ordusundan ayrılan general Manaf Tlasın adı hallansa da, Suriya Milli Şurası ilə bu şəxs arasında anlaşılmazlıq var.

***Bizim Yol: Sizcə, “ərəb baharı”nın son ünvanı Suriyadır, yoxsa proses başqa ölkələrdə davam edəcək?***

S. Kalemdaroğlu: “Ərəb baharı” Yaxın Şərqdə, xüsusilə ərəb ölkələrində internet, televiziya, sosial şəbəkələr kimi vasitələrlə canlanan, dünyada gedən proseslərin fərqinə varan, olduqca savadlı gənc bir nəslin ortaya çıxması prosesidir. Əslində, bu üsyan dalğası yeni bir fenomen deyil. Tunis, Əlcəzair, Misir və digər ölkələrdə, həmçinin Qərbi Saxarada illərdir yetişmiş bir çox sosial və həmkarlar təşkilatları vardı. Məsələn, Tunisdə məlum proses başlamazdan 3 il əvvəl mədən bölgələrində yaşanan etirazlar unudulmayıb. Misirdə də fəhlə tətilləri güclü idi, 2004-dən inqilaba qədər 3 min fəhlə tətili baş vermişdi.

Amma, Yaxın Şərq ölkələrində sivil inqilabların baş tutması üçün daxili və xarici amillərin uyuşması lazım gəlirdi. Daxili zəminin yetişdiyini görürük. Xarici amillərə gəlincə, amerikameyilli vətəndaş cəmiyyəti təşkilatlarının bu hadisələri dəstəklədiyi göz önündədir. Təsəvvür edin ki, son 2 ildə ABŞ təkcə bu ölkələrdəki etirazları dəstəkləmək üçün 50 milyon dollar ayırıb. Ayrıca, Vaşinqtonun dünyanın müxtəlif yerlərindəki 5 min etirazçı fəal üçün yetişdirmə proqramları təşkil etdiyi bəllidir. Həmin hazırlanmış şəxslər ölkələrinə dönərək, gəncləri hazırlayır və bu da bir dalğalanma təsiri yaradır. “Ərəb baharı” dediyiniz budur.

“Ərəb baharı”nın son dayanacağı Suriya deyil. Əslində, bu gün Suriya müxalifətinə dəstək verən ölkələrdə də “ərəb baharı”nın təsirləri hiss olunur. Bunlardan ən qabağa gedəni Səudiyyə Ərəbistanıdır. Bu ölkə Suriya məsələsində müxalifətə ən çox dəstək verənlərdəndir. Bununla belə, Səudiyyənin neftlə zəngin və şiələrin məskunlaşdığı cənub bölgəsində 3 ildir etirazlar baş qaldırıb. Ayrıca, neftlə zəngin digər bölgə - şərq bölgəsi də şiələrin, dolayısı ilə İranın təsirinə keçə bilər ki, Qərb də bunu istəmir. Bu səbəbdən Səudiyyədəki üsyanlar digər ölkələrdəki qədər “diqqət çəkmir”.

***Bizim Yol: İran mövzusuna toxundunuz. Bəzi Qərb ölkələri Tehranın nüvə fəaliyyətini dayandırmağın mümkünsüzlüyün dilə gətirirlər. Yəni cənub qonşumuzun nüvə silahına sahib olacağını etiraf edirlər. Bu iddia nə dərəcədə doğrudur, yaxud İrana hərbi müdaxilə olacaqmı?***

H.Boz: Tehran bu gün uranı 20 faiz həddində zənginləşdirməyə nail olub. Bu paraleldə səbrli şəkildə “altılıq” ölkələrinin başını qataraq, vaxt qazanır. Mütəxəssislər İranın 100 kiloqram həcmində 20 faiz uran zənginləşdirdiyini və bunun hələlik nüvə silahı üçün yetərli olmadığını açıqlayırlar. Bu üzdən “altılıq” ölkələri İran nüvə silahı əldə etmədən, həmin zənginləşdirilmiş uranı ölkədən xaricə çıxarmağa çalışır. Lakin qeyd edək ki, İsrailin iddialarına baxmayaraq, yaxın zamanda İranın nüvə silahına sahib olması mümkün görünmür. Tətbiq olunan iqtisadi sanksiyalar da buna imkan vermir.



Hərbi müdaxiləyə gəlincə, ABŞ-dakı prezident seçkilərindən əvvəl hərbi əməliyyatlar başlaması inandırıcı deyil. Sadəcə Obama administrasiyası iqtisadi sanksiyaları sərtləşdirməklə, xüsusən neft sənayesi və İnqilab Keşikçilərinə qarşı istisadi embarqolarla İranı çökdürməyə çalışır. İsrailin təzyiqlərinə baxmayaraq, Ağ Ev Əsədi rejimini devirmədən, İrana qarşı uzunmüddətli mübarizəni davam etdirəcək. Bu o demək deyil ki, Amerika İranı əzməkdən vaz keçəcək. İranın regionda nüfuzunu artırmağa çalışması və nüvə hədəfinə çatma istəyi Qərbi ciddi düşündürür. Xüsusilə, İranla qonşu olan İsrail üçün ciddi təhlükə meydana çıxa bilər. Bu mənada, Suriyada aparılan uzunmüddətli müharibənin yekun hədəfi İran rejimini yox etmək olacaq. İran xarici siyasətindəki gərginlik taktikası ilə daxili siyasətdəki təhdid nöqtələrini uzlaşdıraraq, xalqı bir arada tutmaqdadır. Hazırladığı nüvə proqramına qarşı təzyiq və sanksiyaları “Hörmüz kartı” ilə zəiflətməyə çalışan Tehran, boğazı bağlama hədəsini diplomatik “kozır” kimi istifadə edəcək və qanlı müharibə yerinə “soyuq müharibə” prosesini gücləndirəcək.

***Bizim Yol: Suriya və İran məsələsi gərginləşdikcə, “Kürdüstan dövlətinin” yaradılacağı iddiaları da qızışır. Bölgədə nə baş verir? Həqiqətən, İran, Suriya, İraq və Türkiyə torpaqları hesabına Qərb kürd dövləti yaratmaq niyyətindədir?***

S. Kalemdaroğlu: Suriyalı kürdlər ölkədə ən güclü təşkilatlanmış qrup olsalar da, üsyanın başladığı ilk vaxtlarda tərəfsiz qalmağı üstün tutmuşdular. Onlar belə bitərəf qalması Əsədin öz qüvvələrini ölkənin şimal-şərqindən digər bölgələrə, xüsusilə Şam və Hələbə daşımasına imkan yol açdı. Amma ona qədər artıq PKK ilə bağlı olan Demokratik Birlik Partiyası (DBP), Bərzaninin təşviqi ilə Kürt Milli Şurasının (KMŞ) tabeçiliyinə girməyi qəbul etmiş və Ali Kürd Şurası adlı qrup yaratmışdılar. Bu Şura da Xalq Müdafiə Birlikləri adlı silahlı qüvvəni təşkil etmişdi. Beləliklə, Əsədin öz qüvvələrini çəkməsi ilə ölkənin şimalında yaranan boşluğu DBP silahlıları doldurdu.

Onu da qeyd etmək lazımdır ki, DBP ilə KMŞ bir araya gəlmiş kimi görünsə də, aralarında kəskin ziddiyyət var. DBP hələ də öz bayraqlarını qaldırmaqda, KMŞ isə DBP-nin Əsəd rejimi ilə yaxınlığından narahatlıq keçirməkdədir. Ayrıca, KMŞ-nin Bərzani ilə yaxın münasibətləri də DBP-ni narahat edir. Halbuki, Suriya kürdlərinin bölgədəki hədəflərinin reallaşması üçün mütləq bir araya gəlmələri vacibdir. Aralarındakı etibarsızlıq və fikir ayrılıqları isə onları zəiflədir və İran kimi ölkələrin bu qruplarla manipulyasiya etməsinə imkan yaradır.

Digər tərəfdən, DBP-nin nəzarət altına aldığı deyilən bölgələrdə Azad Suriya Ordusu ilə DBP arasında bir gərginlik var və bölgənin gələcəyi Əsəd rejiminin süquta uğramasından sonra bəlli olacaq. Nəzərə alaq ki, həmin bölgənin ətrafı tamamilə kürd idarəçiliyinə qarşı çıxan ölkələrlə əhatələnib və bu səbəbdən kürdlər xarici dəstəyə ehtiyac duyacaqlar. Hətta Suriya kürdlərindən istər nüfuz, istər təbii ehtiyyatlar və iqtisadi güc, istərsə də hərbi baxımdan güclü olan Şimali İraq kürd muxtariyyəti belə, ABŞ-ın dəstəyi olmadan oturuşa bilmirdi. ABŞ-ın isə Suriya kürdlərini dəstəkləməsi üçün strateji marağı yoxdur. Yenə də durum dəyişə bilər. Türkiyə də bölgədə yeni bir kürd qurumunun yaranmasına izn verməyəcəyini bəyan edib. Çünki sərhədin Suriya tərəfində bir PKK məskunlaşması Türkiyə üçün qəbuledilməz durum yarada bilər. İstənilən halda, uzaq perspektivdə sözügedən təhlükənin reallaşması istisna edilə bilməz.

**Tural TALEHOĞLU**

# SURİYALI MÜXALİFLƏR UŞAQLARI QƏTLƏ YETİRİR

Əqidələri vəhabilərdən ibarət olan suriyalı müxaliflər, qarşılarına çıxanları kafir adlandıraraq güllələyir

FaktXeber.com-un verdiyi məlumata görə, Suriyada müxaliflər hakimiyyətə qarşı çıxmayan yerli əhaliyə qarşı qətliamlar həyata keçirir. Əqidələri vəhabilərdən ibarət olan suriyalı müxaliflər, qarşılarına çıxanları kafir adlandıraraq qətlə yetirir. Suriyalı müxaliflərin kafir deyərək öldürdükləri arasında azyaşlılar da var. Bunlardan biri Zeynəbiyyə qəsəbəsinin sakinidir. Aşağıda izləyəcəyiniz fotoşəkildə azyaşlı suriyalının vəhhabi müxaliflər tərəfindən qətlə yetirildiyi öz əksini tapıb. Fotolara baxan hər bir şəxs, bunu məhz ABŞ və Qərbin dəstəyini almış vəhhabilərin etdiyindən şübhə etmir.



Qeyd edək ki, Səudiyyə Ərəbistanında yaşayan vəhhabi alimi Məhəmməd Əl-Ərifi, suriyalı müxaliflərə bu ölkədə hakimiyyəti devirmək üçün istənilən şəxsi öldürməyi halal edib. Alim yalnız edilən cinayətlərin lentə alınmamasını müxaliflərdən tələb edib.

# Suriyada kürdlər fəallaşıb

GünAz TV: Suriyada prezident Bəşər Əsəd və müxalifətçilər arasında qızğın döyüşlər gedərkən ölkənin şimalındakı kürdlər vəziyyətdən faydalanaraq bir çox şəhərləri tamamən ələ keçiriblər.

Milli.Az "Taraf"a istinadən bildirir ki, Suriyanın şimalında yollarda hər 5 kilometrdən bir silahlı kürdlərin nəzarətburaxılış postları var. Kobani, Kamışlı, Afrin, Amude, Derika, Hemko yaşayış məntəqələrində terrorçu PKK təşkilatının bayraqları dalğalanır.

Təxminən 3 milyon kürdün yaşadığı bölgədə "söz sahibi" isə müstəqil partiya olduğunu deyən, əslində isə PKK-nın bir qolu olan "Demokratik Birlik Partiyası"dır (PYD).

PKK və PYD birləşərək Suriyanın şimalındakı şəhərləri idarə etmək üçün TEVDEM ("Qərbi Kürdüstan Demokratik Xalq Hərəkatı") yaradıblar. N.S

# Sünni diktatorlar İrana qarşı silahlanır



Körfəzin ərəb dövlətləri İranın nüvə proqramından və mümkün "şiə hücumundan" narahatdırlar

İran təsirinin artması Körfəz ölkələri arasından çaxnaşma əhval-ruhiyyəsi yaradıb. Bu barədə rusiyalı jurnalist Yevgeni Pojidayevin "Rosbalt" nəşrində dərc olunmuş məqaləsində bildirilir və ANS PRESS məqalədən müəyyən hissələri təqdim edir:

Söhbət Körfəzin ərəb dövlətlərinin əməkdaşlıq şurasına (KƏDƏŞ) daxil olan konservativ monarxiyalardan – Səudiyyə Ərəbistanı, Qətər, Küveyt, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Omandan gedir, monarxiya İordaniyası da onların sırasındadır. Bu qruplaşmanın daxilində yetərincə anlaşılmazlıq var. Amma bütün bunlar "İran təhlükəsi"nin qarşısında arxa plana keçir. KƏDƏŞ elitası İranın nüvə proqramından və ümumən güclənməsindən, həm də mümkün "şiə hücumundan" çox narahatdırlar.

İran gerçəkdən sürətlə inkişaf edir. Ölkədə ildə milyon yarımdan çox avtomobil istehsal edilir, aviasiya sənayesi var. Membiristor – perspektivli yaddaş özəkləri sahəsində ciddi tədqiqatları var, müstəqil şəkildə üç kosmik aparat buraxıb.

İslam Respublikasının qonşularla çox sayda ərazi münaqişələri də var. Tehran Bəhreyni ingilislər tərəfindən qanunsuz qoparılmış əraziləri sayırlar. Körfəzə girişi bağlayan kiçik, amma strateji tərəfdən çox önəmli olan adaların – Əbu Musa, Kiçik Tomb və Böyük Tomb adalarının üzərində BƏƏ ilə anlaşa bilmirlər. Küveytlə də neft sahələri ilə bağlı anlaşa bilmirlər.

Həm də İranın inkişafı Yaxın Şərqdə həmişə ayrı-seçkiliyə məruz qalmış şiə azlığının fəallığını gücləndirir. Bəhreyndə şiələr 75% təşkil edir, amma sünni hakimiyyətin aparteid siyasəti ölkəni İran təsirindən kənarda saxlaya bilir. Küeytdə şiələr 30-45%, BƏƏ-də 15-20%, Qətərdə 10% təşkil edir. Səudiyyə Ərəbistanında əhalinin 8-20% təşkil edən şiələrin 60%-i şərq sahil zonalarında yerləşirlər ki, Səudiyyənin neft ehtiyatlarının demək olar ki, hamısının burada yerləşməsi Ər-Riyad üçün həddindən əlverişsizdir. Səudiyyədə şiələr yüksək dövlət qulluğu tutmaq, orduda, təhlükəsizlik xidmətində və polisdə xidmət etmək hüquqlarından məhrumdurlar. Həm də ki, onları sayı üstün vəziyyətdə olan əhaliyə nisbətən sürətlə artır.

Təsadüfi deyil ki, "WikiLeaks"də dərc olunmuş sənədlər Körfəz elitasının İrana qarşı aşıb-daşan nifrətini əks etdirir. Əbu-Dabinin varis şahzadəsi Mohammed bin Zayed əl-Nahayyan İranın nüvə silahı əldə edilməsinin nəticələri ilə müqayisədə müharibənin "yetərincə yaxşı alternativ" olduğunu vurğulayıb. Səudiyyə Ərəbistanının kralı Abdulla dəfələrlə "ilanın başını üzməu üçün" İrana hücum etməyə çağırıb. Oxşar əhval ruhiyyə Bəhreydə, İordaniyaada və inqilabdan əvvəlki Misirdə də nümayiş etdirilib.

Bu əhval ruhiyyənin konkret ifadəsi kimi silahlanmanı göstərmək olar. 1990-cı illərdən bu yana Səudiyyə Ərəbistanının ordusu 1,5 dəfə artaraq 224 min nəfərə çatıb. Tankların sayı 700-dən 1055-ə çatıb və bunların 315-i çağdaş "Abrams"lardır. Həm də Səudiyyə "Leopard-2" alman tankları üçün verdiyi 270-300 ədədlik sifarişi $10 mlrd. ödəməklə 600-800 ədədə qaldırmaq və bununla da öz tank parkını iki dəfə artırmaq istəyir.

Bu ölkənin hərbi-hava qüvvələrində 78 helikopter 293 təyyarə var – onların 130-u ağır qırıcılar və qırıcı bombardmançılardır.

Amma belə görünür ki, bu yalnız "girişdir". 2007-ci ildən başlayaraq krallıq bir sıra yeni sazişlər bağlayıb, o cümlədən 72 ədəd "Evrofayter Tayfun" qırıcısı alınmalıdır. 2010-cu ilin dekabrında isə ABŞ-la $60 mlrd-lıq silah sazişi bağlanıb. Bu, 84 ədəd ağır F-15 qırıcı təyyarəsinin alınmasını, eyni tipli 70 təyyarənin modernləşdirilməsini, 72 ədəd "AH-64D Apache" helikopterlərinin, 72 ədəd "UH-60M Black Hawk" çox təyanatlı helikopterlərin, 12 ədəd "MD-530F" yüngül helikopterlərin alınmasını əhatə edir. Nəticədə Səudiyyə Ərəbistanının helikopter parkı demək olar ki, üç dəfə artacaq.

Səudiyyənin havadan hücumundan müdafiə sistemləri də təkmilləşəcək – yerli "Patriot"lar RAS-3 səviyyəsinə qədər müasirləşəcək. Bundan başqa, Səudiyyə Ərəbistanı hərbi-dəniz qüvvələrinin inkişafına $23 mlrd ayırıb və bu rəqəm artırıla da bilər. Ər-Riyad yeni suüstü gəmilər, 6-8 sualtı qayıq almaq, dəniz piadalarını müasirləşdirmək niyyətindədir. Nəhayət, ABŞ-ın bu yaxın müttəfiqi kütləvi qırğın silahları almağa xüsusi maraq göstərir. Ər-Riyadın kimyəvi silahı çoxdan var, amma 2009-cu ildə Səudiyyə nüvə silahı almağa hazır olduğunu bildirib. Bu, boş sözlər deyil, krallıq Pakistanın nüvə proqramına sponsorluq edib.

***Defence.az***

## Klinton Türkiyəyə getdi



ABŞ Dövlət departamentinin rəhbəri Hillari Klintonun başçılıq etdiyi nümayəndə heyəti Türkiyəyə rəsmi səfərə gəlib.

haberler.com saytının yaydığı xəbərə görə, Hillari Klinton Türkiyə xarici işlər naziri Əhməd Davutoğlu və digər rəsmi şəxslərlə Suriyadakı münaqişənin nizamlanması, bu yolda Suriya müxalifəti ilə əməkdaşlıq barədə müzakirələr aparacaq. ***APA***

## Suriyanın Baş naziri müxalifətə qoşulub



Suriyanın Baş naziri Riyad Fərid Hicab ölkə müxalifətinə qoşulub. Trend-in "Russia Today" telekanalına istinadən verdiyi məlumata görə, bu barədə bazar ertəsi Azad Suriya Ordusu tərəfində olan Dəməşq Hərbi Şurasından bildirilib.Bir müddət əvvəl Suriyanın İraq, Kipr, Belarus və BƏƏ-dəki səfirləri də müxalifət tərəfinə keçdiklərini bildirmişdilər.

## İran prezidenti Səudiyyə Ərəbistanına səfər edəcək



İran prezidenti Mahmud Əhmədinejad Səudiyyə Ərəbistanında keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının (İƏT) toplantısında da iştirak edəcək.

APA-nın "Mehr" xəbər agentliyinə istinadən məlumatına görə, bu barədə İranın Prezident Administrasiyasının beynəlxalq əlaqələr şöbəsinin baş direktoru Məhəmmədrza Furkani açıqlama verib. O bildirib ki, M. Əhmədinejad Səudiyyə Ərəbistanının kralının dəvəti ilə Məkkəyə səfər edəcək.

Qeyd edək ki, avqustun 14-15-də Səudiyyə Ərəbistanının Məkkə şəhərində İslam Əməkdaşlıq Təşkilatının toplantısı keçiriləcək. ***www.publika.az***

## Türkiyə kürd muxtariyyəti ilə əməkdaşlıqda İraqın maraqlarını nəzərə alır

Türkiyə kürd muxtariyyəti ilə neft sahəsində əməkdaşlıqda İraqın maraqlarını nəzərə alır və mərkəzi hökuməti narahat edəcək addımlar atmayacaq. Bu barədə bazar ertəsi Türkiyənin energetika və təbii resurslar naziri Taner Yıldız "Zaman" qəzetinə bildirib. "Kürd muxtariyyəti ilə energetika sahəsində əməkdaşlıq mərkəzi hökumət ilə razılaşdırılacaq. Biz Bağdadın maraqlarına zidd olan addımlar atmayacağıq", – Yıldız deyib.

Nazirin sözlərinə görə, Türkiyə Neft Qaz Korporasiyası İraqın cənubunda dəyəri 5 milyard dollar olan layihələr reallaşdırır. ***Trend***

# BMT ƏSƏDİ SÜLHLƏ QOVMAQ CƏHDLƏRİNİ DAYANDIRDI

Kofi Annan Suriya üzrə xüsusi təmsilçi postundan istefa verdi, müharibə qızışır, Türkiyə sərhəd yaxınlığında hərbi təlimlər keçirir

BMT-nin Suriyadakı böhranın nizamlanması üzrə xüsusi təmsilçisi Kofi Annan öz postunu tərk edib. Cenevrədə keçirdiyi mətbuat konfransında o bəyan edib ki, böhranın dinc yolla nizamlanmasına dair göstərilən bütün səylər boşa çıxıb və işin bu yerə gəlib çıxmasına görə dərin təəssüf hiss keçirir. Annan BMT və Ərəb Liqasının Suriyaya dair sülh planının qəbul edilməsi üçün səy göstərib, Bəşər Əsədlə bir neçə dəfə danışıqlar aparıb.

Lakin Əsəd sülh planı ilə razılaşdığını elan etsə də müxaliflərə qarşı silahlı əməliyyatları dayandırmayıb və yeni-yeni qətliamlar törədib. Annan deyib ki, tərəflər zorakılığın azaldılmasına dair heç bir səy göstərməyiblər, atəşkəs barədə razılaşmalar yerinə yetirilməyib və artıq onun missiyasını davam etdirməsinin mənası yoxdur. Beynəlxalq ekspertlər Annanın istefasından sonra Suriya məsələsində Qərblə Rusiya arasında qarşıdurmanın dərinləşəcəyini gözləyir. Çünki Rusiya bir neçə dəfə BMT Təhlükəsizlik Şurasında Suriya rejiminə sanksiyaları nəzərdə tutan qətnamənin qəbuluna veto qoyub. Qərb bildirir ki. Suriya böhranının dinc yolla nizamlanması səylərinin boşa çıxmasına görə məsuliyyət Rusiyanın üzərinə düşür.




Ekspertlərə görə, Annanın getməsi Əsəd rejiminin sonunu da yaxınlaşdıra bilər. İndi Qərb və ərəb dövlətləri dinc vasitələrdən tam əl üzərək müxalifətə dəstəyi artıracaqlar. Bu arada Əsəd qüvvələri ilə müxaliflər arasında döyüşlər şiddətlə davam etməkdədir. "Röyter" xəbər verir ki, ordu qüvvələri Hama şəhərinə daxil olaraq dinc əhalini güllələyib, şəhərdə 50-dən çox adamın öldürüldüyü bildirilir. Ölkənin ikinci əsas şəhəri olan Hələbdə də döyüşlər bir həftədir səngimir. Şəhərin əsas hissəsi "Azad Suriya Ordusu"nun nəzarətindədir. Suriya ordusunun şəhərə yeni hücum hazırladığı bildirilir. Suriya müxalifətinin liderlərindən Burhan Qalyon bildirib ki, əgər Hələb şəhəri alınsa onlar öz qərargahlarını bu şəhərə köçürəcəklər. "Suriya Milli Şurası öz qərargahını Əsədin Hələbdəki iqamətgahında yerləşdirməyi planlaşdırır. Əgər Hələb azad olunsa "Azad Suriya Ordusu"nun Dəməşqə irəliləməsi yolunda heç bir maneə qalmayacaq. Çünki Dəməşq ətrafındakı Hama, Homs və digər şəhərlər artıq bizim nəzarətimizdədir".

Xəbərlərə görə, Suriya ordusu bütün gücünü Hələbə cəmləşdirir, ordu şəhərdə ciddi itki verdikdən sonra digər regionlardan əlavə qüvvə yığır, şəhərə doğru onlarla tankın hərəkət etdiyi görünüb.

Türkiyə ordusu da Suriya ilə sərhəd Hatay bölgəsində son günlər ərzində ikinci tank təlimlərinə başlayıb. Türkiyə Suriyanın şimalındakı bir neçə bölgənin PKK-ya bağlı kürd qruplarının nəzarətinə keçməsindən narahatdır. Ankara bu bölgələrdən təhdid yaranacağı təqdirdə hərbi müdaxilə etməyə hazır olduğunu açıqlayıb. Xarici işlər naziri Əhməd Davudoğlu isə Suriyanın şimalındakı vəziyyəti İraqın şimalındakı kürd administrasiyasının rəhbəri Məsud Bərzani ilə müzakirə edib. Daha sonra Davudoğlu türkmən şəhəri Kərkükə baş çəkib. Bu, Türkiyə xarici işlər nazirinin Kərkükə ilk tarixi səfəridir. ***musavat.com***

# 1905-06-cı illərdə erməni-müsəlman davasında Kürd xalqının rolu

**Əvvəli ötən sayımızda**

Ə L A V Ə: Həmin günün sabahı ermənilərdən on dörd nəfər atlanıb şəhərdən kənarda yerləşən Yarma adlı yerə gəlir və müsəlmanların yolunu kəsir və onların gediş-gəlişinə mane olurlar. Müsəlmanlar əhvalatdan xəbərdar olan kimi bir neçə igid döyüşçü həmin yerə gələrək ermənilərin üstünə hücum edirlər. Ermənilər karıxıb hərəsi bir tərəfə qaçarkən onlardan üçünü öldürüb birini isə yaraladılar. Qaçanlar Qalaya gəlib erməniləri əhvalatdan xəbərdar etdilər. Dərhal qımdatların rəhbərliyi altında bir dəstə erməni Yel dəyirmanı adlanan qayanın üstünə gəldilər. Qayanın üstünə çıxıb durbinlə çay tərəfdən gələn müsəlmanları müşahidə etməyə başladılar. Axşama bir saat qalanda gördülər ki, bir fağır qoca müsəlman kişisi odun yüklənmiş atla gedir. Kişi oruc olduğuna görə atın quyruğundan tutub yavaş-yavaş addımlayırdı. Erməni quldurları qocanı güllə ilə vurub öldürdülər. At isə qaçıb yüklü halda kişinin evinə gəlir. Kişinin külfəti vəziyyəti belə gördükdə qorxuya düşüb tanış-bilişi köməyə çağırdı. Onlar kişini axtarsalar da, artıq gecə düşdüyündən qaranlıqda onu tapa bilmədilər. Səhərisi gün gedib onun meyidini tapdılar və bu haqda divana məlumat verdilər. Sonra isə kəfənə tutub dəfn etdilər. Həmin kişi Səfərəlinin oğlu Qulu dəllək idi. Mərhumun qardaşı hamıya bildirdi ki, ermənilər o biçarəni öldürəndən sonra qarnını yırtıb, başını daşla əzib, qulağını kəsib aparmışdılar. Vay olsun bu növ tayfanın əhvalına ki, Allah-təalanın məxluquna nahaq yerə belə zülmlər edib, dünyanı rahatsız qoyub özlərini də zəlil ediblər.

**ERMƏNİ TAYFASINA NƏSİHƏTLƏR**

Əvvəla, bu tayfadan (erməni) sual edirəm ki, bu qədər mərdüməzarlıq və nahəq qanlar tökməkdə, mülklərin və malların talan və tarac edilməsində və yanıb xarabazarlığa çevrilməsində səbəb və mətləbiniz nədən ibarətdir?

Əgər məqsədiniz padşahlıq və kral olmaqdırsa, sizin bu təbiətinizlə və insafsızlığınızla heyhat ağla sığan şey deyil. Ağıllı və kamallı insanın sizin haqqınızda düşüncəsi belədir ki, belə səfeh hərəkətlərlə sizin tayfaya nəinki padşahlıq, heç koxalıq və kəndxudalıq da yaraşmır. Bu, dəfələrlə mötəbər dəlillərlə sübut olunmuşdur.

Birincisi budur ki, Allah-təala zalıma iqtidar və ixtiyar verməz. Əgər pişiyə qanad versəydi, quşların toxumunu yer üzündən kəsərdi. Hərgah dəvəyə və filə qanad versəydi, tamam damlar dağılardı.

İkincisi, özünüzə məlumdur ki, bundan əvvəl erməni tayfası çox idi. İlan kimi çölü yumşaq, içi zəhri-həlahil olduğundan, basdığını kəsdiyindən, mürüvvətsizlikdə həddini keçdiyindən və başqa xalqlara rəhm etmədiyindən, o qədər belə insafsızlıq və zülmkarlıqlarla məşğul olduqlarından hansı millətin əlinə düşürdülərsə, əməllərinizə görə onlara layiqli cəza verirdilər.

Ə L A V Ə: Bir mötəbər ziyalı mənə danışdı ki, Almaniyanın dövlət xadimi və alimi mənə dedi ki, ermənilər ki, bu cür yol tutub, çox tezliklə dünyanın üzündən yox olub, onlardan bir əsər-əlamət qalmayacaqdır. Siz (ermənilər) Allah-təalaya dua edin ki, sizlərə rəhmli və insaflı ürək, xoş niyyət, fitnə-fəsadlardan uzaq, gözəl əməllər qismət edərək, xasiyyətinizi dəyişdirsin və pis əməllərdən çəkindirsin. Bəlkə, bu zaman insanlığa layiq sifətlər əldə edəsiz. Yoxsa siz bu vəhşi təbiət və qəddarlıqla, beş-altı şahı banklara toplamaqla, fəqir-füqəranı aldadıb zorla onlardan beş-üç şahı qopardıb cibinizi doldurmaqla, bığınızı burub başınıza papaq qoymaqla və çiyninizə yapıncı salmaqla padşah olmaq mümkün deyil. Nahaq qanlar töküb namərdliklə qəflətən insan məxluqunu öldürüb, burun-qulağını kəsib, başına nal çalmaqla və başqa növ vəhşiliklə böyük olmaq mümkün deyildir. Belə qəddar və vəhşi adamlar nəinki böyük olmaz, əksinə, o həmişə zəlil və bütün məxluqatın ayaqaltısı olar. Siz xalqınız içərisində əkdiyiniz qəddarlıq toxumunun tezliklə barını görəcəksiniz. Bununla siz başqaları üçün qazdığınız quyuya, yəqin edin ki, özünüz düşəcəksiniz.

***Bir ağacın ki, meyvəsi zülm ola,***
***Bir gün onun gövdəsinə balta çalacaqlar.***

T Ə M S İ L: Bir dəvəyə sahibi həmişə duz yükləyib gətirib şəhərdə satarmış. Dəvə duz yükü daşımaqdan çox zəifləyirmiş. Bir gün bir tülkü ona deyir ki, əgər yükünün yüngül olmağını istəyirsənsə, sudan gedəndə bir bəhanə ilə çayın içində yat. Gör onda necə olacaqdır. Sabahısı gün dəvənin sahibi yenə ona duz yükləyib şəhərə tərəf yola düşdü. Çaydan keçəndə dəvə bəhanə ilə suyun içində yatdı. Duza su dəydiyindən şəhərə gedənə kimi yarı oldu. Yəni, su ilə əriyib yerə töküldü. Sahibi bunu görcək sabahısı gün dəvəyə keçə və yun yüklədi. Dəvə öz hiyləsindən şadlanırdı. Elə ki, gəldilər çayın kənarına, oradan keçərkən dəvə yenə suda yatdı. Keçə və yun islandıqdan sonra ağırlaşdı. Keçə və yunun ağırlığı on batman idisə, su dəydikdən sonra iyirmi batman oldu. Dəvə yükü apara bilmədiyindən yıxıldı. Sahibi dəvəni o qədər vurdu ki, dəvə axırda öldü.

Qərəz, ermənilərin belə nahaq qanlara bais olmaları, qəddarlığa və mürüvvətsizliyə yol vermələri axırda onların özlərini məhv edəcəkdir. Məgər bunların içərisində idraklı, gələcəyi görən və allahdan qorxanları yoxmudur ki, uzaqgörənlik edib bu fitnə-fəsadlara bais olan və özlərinin xeyrindən ötrü aləmi xəsarətə düçar edənlərə öyüd-nəsihət verib onları düzgün yola qaytaralar. Bircə bunlardan sual edən yoxdur ki, ay ermənilər, vilayətdə alış-verişlə məşğul olduğunuz, zavod və karxanalar işlətdiyiniz, pul və malınız əlinizdə, çoxunuz milyonçu olduğunuz halda və bir kimsənin sizə gözünün üstündə qaşın var demədiyi bir vaxtda Qafqaz vilayətinə



saldığınız bu fitnə-fəsadlar nə üçündür?

Padşah və böyüklər yanında hörmətiniz olduğu, sözünüz eşidildiyi və xadimələrlə birlikdə gözəl-gözəl imarətləriniz olduğu və fəhlələr qabağınızda səf- səf durduğu halda, bu nə tüğyan idi ki, bu vilayətə saldınız? Bir para cibkəsənlərin sözü ilə özünüzü və əhli-əyallarınızı min dürlü bərabər dünya edərək əli qoynunda zar və giryan qoyub, özünüzlə bərabər dünya əhlini də tamam narahat edib, dərdü qəm dəryasına qərq eləmisiniz.




Ayrı-ayrı şəhərlərdə və kəndlərdə ermənilərin bais olduğu fitnə-fəsadlar nəticəsində nahaq qanlar tökülmüş, hesabsız dərəcədə mallar talan və qarət edilmiş, hesabsız sayda imarətlər, dükanlar, karxanalar yandırılaraq viran edilmiş, minlərlə kişilər və övrət-uşaqlar öldürülmüş və yandırılmışdır. Bununla da onlar (ermənilər) hesabsız sayda övrətlərin dul və sahibsiz, uşaqların isə yetim, kimsəsiz qalmasına səbəb olmuşdular.

Qu quşu tükündən tikilən mütəkkələrə baş qoyub söykənməyə naz edənlər, şal və tirmə yorğan-döşəklərdə yatmaq istəməyən şəxslər indi bir köhnə paltonun içində üryan və zaru giryan qalıb. Övrət-uşaqlar, tanınmış adamlar yuvası dağılmış, evləri və imarətləri tar-mar edilərək yandırıldığından tərki-vətən olub, külfətli və külfətsiz başqa vilayətlərə getməyə məcbur olmuş və onlardan bir çoxu səfil həyat keçirməyə məcbur olmuşdur.

Mən bilmirəm fitnə-fəsad törədib xalqı qırğına verən bu erməni quldurları o dünyada sorğu-sual zamanı adil Allaha nə cavab verəcəklər.

Bu qədər zülm, sitəmkarlıq, insafsızlıq və özbaşınalıqla bu əyalətdə bayrağınızı qaldırmaq istəyirsiniz. Lakin ona nail olmayacaqsınız. Bəli, o padşahlıq bayrağı ucalarsa, əvvəl onun altına başı-gözü mismarlanmış, burnu-qulağı kəsilmiş, başları daş və çəkiclə əzilmiş, bədənləri zülm odu ilə odlandırılmış şəxslərin övladları gəlib sizdən sorğu—sual edəcəkdir. Bunu yəqin bilin ki, bu zülmlərin əvəzi çox tezliklə onu törədənlərdən çıxılacaq. Allah-təala da bu zülmləri törədənlərə rəhm etməyəcəkdir. Əlbəttə, bu zülmləri edən quldurlardan tezliklə bu dünyada qisas alınacaq və axirətdə də onun cəzasını çəkəcəklər.

**İBRƏTAMİZ ƏHVALAT**

Bir gün mən (M. M. Nəvvab) bazardan keçərkən gördüm ki, xalq yığışıb nəyəsə tamaşa edirlər. Yaxınlaşıb baxanda gördüm ki, Əbdül adlı bir kişi tələ ilə üç-dörd siçan tutub, yanına da bir şüşə neft qoyub, siçanların üstünə neft tökərək bir—bir yandırıb buraxırdı. Siçan od tutan kimi bərk qaçmağa başlayır və o daha da alovlanırdı. Bir az o yan-bu yana qaçdıqdan sonra yıxılıb yanırdı. Mən bunu görəndə əsəbiləşib o kişiyə dedim ki, ay kişi, bu nə insafsız işdir ki, sən tutursan? Allahın məxluquna zülm edərək od vurub yandırırsan. Belə iş etmə ki, Allah- təalaya xoş gəlməz. Və bu zülmlərin cəzasını tezliklə verər. Siçanları yandıran kişi mənə dedi ki, onlar mənim torbamı deşib zərər vurublar. Mən də gərək əvəzində bunları yandıram. Bundan sonra mən Əbdül kişidən ayrılıb evimə getdim.

Bu əhvalatdan bir neçə gün keçdikdən sonra siçanları yandıran Əbdül kişi bir şəxsə barıt satdığı zaman manqaldan bir qığılcım barıt torbasına düşür. Bir batmana qədər barıta od düşən kimi gurultu ilə böyük partlayış olub, dükandakı bütün malların hamısını havaya sovurur. Bu partlayışdan Əbdülün özü də od tutaraq siçanlar qaça-qaça yandığı kimi, o da qaça-qaça yanıb həlak oldu. Onunla bərabər, iki nəfər də yanmışdı. Lakin onları ölümdən xilas etmək mümkün oldu. Əbdül kişinin həm özü öldü, həm də dükanı ilə bütün malları yanıb məhv oldu.

Qərəz, bu nəsihətamiz sözlərdən məqsəd odur ki, bəlkə, erməni tayfasının bir-iki nəfərinin qəlbinə insaf nuru yol tapa, şeytan əməllərinə qulluq edən kəslərə nəsihət verib, onları tutduqları qeyri-bəşəri əməllərdən çəkindirə. Bəlkə, bundan sonra gördükləri bu əməllərin peşmançılığını çəkməyələr.

**Ardı var**

# İsrail mediası İrana hücum ehtimalları ilə dolub-daşır

Bu ilin payızında İsrailin İrana hücum edəcəyinə dair söz-söhbətlər İsrail mediasını doldurub. ABŞ-da çıxan «The New York Times» qəzeti avqustun 3-də yazır ki, İsrail rəsmilərinin də bu istiqamətdə silsilə bəyanatları, ABŞ liderlərinin bu ölkəyə çoxalan səfərləri İrana hərbi müdaxilə barədə yazanları bir qədər də həvəsləndirib.



Amma qəzet qeyd edir ki, avqustun 1-də ABŞ-ın Müdafiə naziri Leon E.Panetta'nın İsrailə səfəri bu ölkənin İrana qarşı belə tezliklə hücuma keçməyəcəyinə ümid yaradır. Eyni zamanda güman edilir ki, gələcəkdə bu cür hərbi müdaxilə qaçılmaz olarsa, ona Vaşinqtonun rəhbərlik etməsi razılaşdırılıb:

«Avqustun 1-də İsrailin Müdafiə naziri Ehud Barak'la görüşdə cənab Panetta bəyan etdi ki, İran nüvə silahı yaradarsa, ABŞ İsrail tərəfində olacaq.

Elə həmin gün İsrailin Baş naziri son çıxışlarındakı ritorikanı davam etdirərək bildirdi ki, İrana qarşı sanksiyalar onun nüvə proqramını dayandıra bilmir. Baş nazirin fikrincə, hazırda İran rejimi beynəlxalq ictimaiyyətin onun nüvə proqramını dayandırmağa meylli olmaması qənaətindədir. Tehranın bu düşüncəsi dəyişdirilməlidir, həm də mümkün qədər tez. Çünki bu məsələnin sülh yoluyla həlli imkanları tükənir».

**SENTYABR YA DA OKTYABRIN ƏVVƏLİ**

Qəzet yazır ki, ABŞ-ın Müdafiə nazirinin İsrailə səfəri zamanı tərəflər İrana dair son kəşfiyyat məlumatlarını bölüşüblər, sanksiyaların icrasını əlaqələndirərək mümkün hərbi müdaxiləni müzakirə ediblər.

ABŞ-ın Müdafiə naziri İsrail səfərindən qabaq Misirdə olarkən deyib ki, hələlik İrana hücum etmək fikrində deyillər. Tehranı nüvə planlarından çəkindirmək üçün başqa imkanlardan istifadə etmək istəyirlər.

İsrailin özündə isə media İrana hücum ehtimalları ilə aşıb-daşır. Hətta iddialar səslənir ki,

Baş nazir Benjamin Netanyahu belə hücumu bu ilin sentyabrında, ya da oktyabrın əvvəlində başlamaq niyyətindədir:

«Təhlilçilər bu payız hərbi əməliyyatın başlaya biləcəyini bir neçə amillə əsaslandırırlar. Əsasən də İsrailin qışda döyüş əməliyyatları aparmaq istəmədiyi söylənir. Eyni zamanda, təhlilçilər yazırlar ki, cənab Netanyahu ABŞ-ın yeni prezidenti seçilənə qədər bu işə başlamağa tələsir. Çünki o hesab edir ki, yeni prezident istər Obama olsun, istərsə Romney, onların heç biri ilk prezidentlik illərində böyük hərbi kampaniyaya qoşulmayacaq».

İsrailin kəşfiyyat idarəsinin keçmiş rəhbəri və milli təhlükəsizlik üzrə sabiq müşavir Efraim Halevy də obrazlı danışaraq «mən iranlı olsaydım, qarşıdakı 12 həftəni qorxu içində olardım» deyib.

«The New York Times» vurğulayır ki, səslənən ehtimalların nəyə əsaslandığı məlum deyil. Amma buna baxmayaraq, bu cür söz-söhbət İrana qarşı hərbi əməliyyat olacağına dair gözləntilərini artırır.

**İRANA HÜCUM EHTİMALI 50 FAİZDİR**

İsraildəki sol təmayüllü «Haaretz» qəzetinin əməkdaşı deyib ki, indi İrana hücum ehtimalları ciddi görünməsə belə, bu ilin noyabrına qədər İsrailin İrana hücum etmək ehtimalı 50 faizdir.

«The New York Times» ABŞ-ın hərbi dairələrinə istinadla qeyd edir ki, İsrailin əlində İranın yerin altında gizlətdiyi nüvə avadanlıqlarını dağıda biləcək bombalar yoxdur. Bu səbəbdən də onun təkbaşına İrana hücumu Tehranın nüvə fəaliyyətini uzağı bir-iki il ləngidə bilər.

Pentaqonun imkanları isə İranın nüvə obyektlərini dağıtmaq iqtidarındadır. Qəzetə görə, hazırda İsrailin təhlükəsizlik idarələrini

İrana hücumdan çəkindirən əsas səbəblərdən biri məhz budur:

«Obama administrasiyası isə İsraili ABŞ-da bu payız keçiriləcək prezident seçkisi ərəfəsində regionda yeni münaqişələr yarada biləcək addımlardan çəkindirməyə çalışır. İran da cavab olaraq raketlərlə Tel-Əvivi vursa, minlərlə yəhudini öldürsə, ABŞ cavab vermək və İsraili qorumaq üçün təzyiq altına düşəcək. Beləliklə də Vaşinqton Yaxın Şərqdə daha bir müharibəyə sövq ediləcək». İsrail bildirir ki, İran özünün nüvə proqramında hər gün uğurlar əldə edir və Tehranın əlində nüvə silahı olmasına günlər qalır. Ona görə də, hərbi əməliyyat keçirib onu dayandırmaq lazımdır.

Tehran isə israrla özünün nüvə proqramının silah yaradılmasına yönəlmədiyini, nüvə enerjisini yalnız dinc məqsədlər üçün inkişaf etdirdiyini deyir. Amma eyni zamanda da beynəlxalq müfəttişləri özünün nüvə obyektlərinə buraxmır. ***azadliq.org***

# Brüsseldə yeni koalisiyası yarandı

Ötən həftənin sonunda Brüsseldə mühacirətdəki İran müxalifətçilərinin görüşü keçirilmişdir. Görüşdə PJAK, bazaları İraqda yerləşmiş Xalq Mücahidləri, fars demokratları, solçu qruplar və sosialistlər iştirak etmişlər.







Əldə etdiyimiz məlumata görə, İrandakı indiki rejimə müxalifət olan fars demokratları, radikal islamçı qruplar, Xalq Mücahidləri, solçular ümumən belə bir razılığa gəlmişlər ki, rəsmi Tehranda hakimiyyət dəyişikliyi zamanı İranın gələcək quruluşu demokratik və mülayim federativ yöndə olsun.

Yeganə olaraq bu görüşdə PJAK-çılarla müəyyən məsələlərdə narazılıqlar üzə çarpıb. PJAK-çılar gələcək İranda Təbrizdən Türkiyə sərhədinə qədər olan ərazilərin "Kürd Muxtariyyəti" elan edilməsini tələb ediblər. Nifaqı dərinləşdirməmək üçün fars millətçiləri ilə Xalq Mücahidləri qrupları PJAK-çılarla razılığa gəlmiş və sonda ümumi bəyannamə qəbul edilmişdir.

Bəyannaməyə görə, İranda hakimiyyət dəyişikliyi istiqamətində iştirakçı qüvvələr fəaliyyətlərini koordinasiya etməlidirlər. İranda yaşayan kürdlərə ayrıca federal muxtariyyətin verilməsi xüsusi bəndlə göstərilmişdir. Bununla yanaşı, bəyannamədə Qərbin dəstəyi ilə qurulacaq yeni İran üçün ən böyük təhlükələr sırasında Azərbaycan və Türkiyədən gələn "separatçı pantürkizm" qeyd edilmişdir.

Qeyd edək ki, görüşdə iştirak edən İran milli demokratları tərəfindən Möhsin Sazqara və PJAK lideri Abdullah Möhtədi aşkar anti-türk mövqeyində duran birləridirlər. Görüşün pərdəarxası təşkilatçısı və təşəbbüsçüsü ABŞ və Avropa siyasi mərkəzləri ilə sıx bağlı olan, mühacirətdə yaşayan keçmiş fars şahının oğlu Rza Pəhləvidir. Bir məsələni də qeyd edək ki, sıralarında bəzi "azərbaycanlıların" da olduğu sosialist, solçu qruplar və Xalq Mücahidləri qruplaşması əvvəllər Güney Azərbaycan Hərəkatına loyal münasibət göstərsələr də, son dövrlərdə Rza Pəhləvinin maliyyə dəstəyindən bütünlüklə asılılığa düşmüşlər. ***davam.az***



## Obama MKİ-yə Suriya müxalifətinə yardım göstərməyə icazə verib

ABŞ prezidenti Barak Obama Mərkəzi Kəşfiyyat İdarəsinə və digər xidmətlərə Suriya müxalifətçilərinə yardım göstərməyə icazə verən sərəncam imzalayıb.

Bu barədə Reyter ABŞ administrasiyasına istinadən məlumat verir.

İmzalanmış sənəd ABŞ xüsusi xidmət idarələrinə Suriya müxalifətçilərinə prezident Bəşər Əsədi devirməkdə yardım göstərməyə imkan verir.

ABŞ maliyyə nazirliyi isə «Azad Suriya ordusu»nun Vaşinqton nümayəndəliyinə Suriya hərbi müxalifəti adından maliyyə əməliyyatları həyata keçirməyə icazə verib. ***www.publika.az***

## Sergey Lavrov: "ABŞ və Avropa terrora dəstək verir"



"Suriyadakı böhranın aradan qaldırılması üçün beynəlxalq ictimaiyyət Bəşər Əsəd rejiminin üzərindəki təzyiqləri götürməlidir". SİA xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib. Lavrov həmçinin əlavə edib ki, Avropa və ABŞ Suriyadakı terror təşkilatlarını dəstəkləyir. Rusiya xarici siyasət idarəsi başçısının sözlərinə görə, Türkiyə-Suriya sərhəddindəki əraziləri ölkə müxalifəti yox, Əl-Qaidə terror təşkilatı tutub: "Bundan başqa iyulun 18-də Dəməşqdə 4 dövlət məmurunun qətlində terror təşkilatının iştirakı var". ***olaylar.az***

## Ahmet Kenan: "Suriyada kürd dövləti yarana bilər"

Suriyada baş verən hadisələri hamımız diqqətlə izləyirik və orada yaşananlar bizi narahat etməyə bilməz.

Bu sözləri Gün.Az-a Türkiyə Böyük Millət Məclisinin Milliyyətçi Hərəkat Partiyasından olan millət vəkili, sabiq sənaye və ticarət naziri Ahmet Kenan Tanrıkulu Suriyada baş verən hadisələri şərh edərkən bildirib. "Onu qeyd edə bilərəm ki, Suriyada baş verən hadisələr və bu proseslərin Suriyada bir neçə kiçik dövlətlərin yaranmasına aparması mümkündür. Bunlardan biri də, Suriyada kürd idarəçiliyinin yaranması ehtimalının olmasıdır. Təbii ki, Bəşşar Əsəd hakimiyyətdən gedərsə, regional proses dəyişəcəkdir. Bunun işartıları indidən görünür. Türkiyə bir dövlət olaraq, bölgədə baş verə biləcək hadisələrə hazır olmalıdır. Yoxsa, bizi qarşıda çox böyük çətinliklər gözləyə bilər", - deyə sabiq nazir qeyd edib. ***gun.az***



## Suriya dövlət televiziyasına edilən hücumla əlaqədar Türkiyəni günahlandırıb

Suriya dövlət televiziyasının Dəməşqdəki binasına edilən hücumdan sonra açıqlama verən Suriyanın informasiya naziri İmran əl Zobi bu hadisədə Türkiyəni günahlandırıb.

SalamNews-un "Cihan"a istinadla verdiyi xəbərə görə, o, hücumda Türkiyə, Qatar və Səudiyyə Ərəbistanını günahlandıraraq deyib: "Hücumla əlaqədar televiziya verilişləri dayandırılmayacaq. Bütün işçilərimiz vəzifə başındadır, yayınlarımız davam edir. Biz bu hücumları kim dəstəkləyir, kimlər maliyyələşdirir bilirik. Bu hücumun arxasında dayanan qüvvələr alçaqlıqlarını göstərdilər. Bu, istər Qətər, istər Səudiyyə Ərəbistanı, istərsə də Türkiyə və ya MOSSAD ola bilər".

***salamnews.org***

## İran Türkiyəni növbəti dəfə ittiham etdi



İran Ali Məclisinin sədri Əli Laricaninin beynəlxalq məsələlər üzrə müşaviri Hüseyn Şeyxülislam Suriyada girov götürülən 48 İran vətəndaşının təhlükəsizliyi ilə bağlı Türkiyə, Qətər və Səudiyyə Ərəbistanının məsuliyyət daşıdığını bildirib. Publika.Az-ın məlumatına görə, İranın ərəbdilli "Əl Aləm" dövlət televiziyasına açıqlama verən Şeyxülislam Suriyadakı silahlılara Türkiyə ərazilərində təlim keçirildiyini və Ankaranın icazəsi olmadan bu qrupların iranlıları qaçıra bilməyəcəyini deyib: "Qətər üsyançılara maliyyə dəstəyi verir. Türkiyə də ərazisindəki bəzin bazaları bu qruplara verərək, onlara lazımi təlimlər keçir. Əgər Ankara və Dohanın yaşıl işığı olmasaydı, bu qruplar adam qaçırmağa cürət etməzdilər". İran vətəndaşlarını qaçıranların Türkiyədə yerləşdiklərini deyən Şeyxülislam, Ankaranın qaçırılan iranlıların sağlamlığı və təhlükəsizliyinə cavabdeh olduğunu söyləyib. Qeyd edək ki, Azad Suriya Ordusu ələ keçirdiyi 48 iranlı turistin əslində İnqilab Keşikçiləri Korpusunun əsgərləri olduğunu irəli sürmüşdü.

İran Xarici işlər Nazirliyi isə vətəndaşlarının hərbçi olduqlarına dair iddiaları əsassız hesab edərək, onların müqəddəs torpaqları ziyarət etmək istədiklərini bildirib.

***Anar Əhmədov***
***Publika.Az***

# MOSSAD Cənubi Azərbaycanlılardan istifadə etmək istəyirmiş?

İsrailin MOSSAD təşkilatını yaxından tanıyan iki jurnalist İrana qarşı aparılan casus müharibəsinin detallarını ortaya çıxarıb

Publika.Az-ın məlumatına görə, amerikalı jurnalist Dan Raviv və israilli jurnalist Yossi Melman "Qiyamətə qarşı casuslar" adlı birgə yazdıqları kitabda bu müharibənin pərdəarxası görüntülərini qeydə alıblar.

Hər iki jurnalistin görüşdüyü MOSSAD rəsmilərinin dediklərinə görə, İranın nüvə silahı yaratmaq istəyinə inanan İsrail Tehranı dayandırmaq üçün əvvəl diplomatik yollardan istifadə etdi. Üçüncü ölkələr vasitəsilə İranın ali dini lideri Ayətullah Əli Xamneyiyə və prezident Mahmud Əhmədinejada nüvə proqramları dayandırmaq üçün mesajlar göndərilib. Ancaq MOSSAD İrana qarşı apardığı müharibədə qalib gəlmək üçün dəstəyə ehtiyacı olduğunu bilirdi. Buna görə də Avropa Birliyi ölkələrində lobbiçilik etməyə başladı.

İsrail hökuməti Avropa Birliyini Suriyaya qarşı sanksiya tətbiq etməyə razı saldığı bir vaxtda, MOSSAD da müxtəlif ölkələrin kəşfiyyat xidmətlərini "İran təhlükəsinə" qarşı birlikdə işləməyə çağırırdı.

**Polşa belə, MOSSAD-a yardım etdi**

MOSSAD-ın ən yaxın müttəfiqi ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (CİA) də yardımı ilə İngiltərənin Mİ6, Fransanın DGSE və Almaniyanın BND xüsusi xidmət orqanları İsrailin yanında yer aldılar. Polşanın da qatılmasından sonra ilk birgə əməliyyatlar başladı.

Tehran Tanzaniya, Azərbaycan, Türkmənistan kimi ölkələr üzərindən nüvə proqramı üçün lazımi hissələri toplamağa çalışırdı. İsrail Avropadakı yeni müttəfiqlərinin yardımı ilə bu ölkələrdən İrana gedən yükləri ələ keçirməyə başladı. Beləliklə, İranın nüvə proqramı ilk zərbəni aldı.

**Azərbaycanlılardan istifadə mexanizmi**

MOSSAD bir tərəfdən də İran daxilindəki vəziyyəti anlamağa çalışırdı. Raviv və Melman kitabda MOSSAD-ın İran daxilində hansı qrupların hakimiyyətə qarşı daha aqressiv olduğunu başa düşmək üçün xüsusi səy göstərdiyini yazıblar.

Kitabda yazılanlara görə, MOSSAD-ın o vaxtkı rəhbəri Meir Daqan hesabatları bir-bir oxuyaraq milli azlıqlardan hakimiyyəti devirmək üçün necə istifadə edə biləcəyi üzərində baş sındırırdı.

"Wikileaks" sənədlərində də Daqanın ABŞ rəsmilərindən birinə İrandakı azərbaycan türkü, kürd və bəluclardan hakimiyyəti devirmək üçün istifadə edə biləcəyini söylədiyi ortaya çıxmışdı.

**Vyana oyunu**

İsrail kəşfiyyatı İran hakimiyyətinin yüksək səviyyəli rəsmilərini öz tərərəfinə çəkmək üçün xeyli səy göstərdi. Xüsusilə beynəlxalq Atom Enerjisi Təşkilatının toplantıları bu baxımdan MOSSAD üçün böyük şans idi.

İranlı rəsmilərini ölkələrindən uzaqda təqib edib, mövqe dəyişdirməyə inandıra bilirdilər.

Raviv və Melmana görə, toplantılar zamanı Vyana casus bazası kimi istifadə olunur, MOSSAD və CİA iranlıları qonşu otaqlardan dinləyə bilirdilər.

Amma bu cür yumşaq sistemlər işə yaramadığından MOSSAD hücumlarının dozasını artırdı.

**Mavi-ağ əməliyyat**

MOSSAD 2010-cu ildən etibarən İranın nüvə sahəsində işləyən alimlərini öldürməyə başladı. Son iki il ərzində 4 alim avtomobillərinə yerləşdirilmiş maqnit bombalar vasitəsilə öldürüldü. MOSSAD bu sui-qəsdlərdə əlinin olduğunu açıqlamasa da, beynəlxalq ictimaiyyət onun bu cinayətlərdə özünün təlim keçdiyi Xalqın Mücahidləri Təşkilatından sipər kimi istifadə etdiyinə əmin idi.

Ancaq Raviv və Melman sui-qəsdləri israilli casusların həyata keçirdiyini iddia edirlər.

Kitabda yazılanlara görə, MOSSAD həyati önəm daşıyan əməliyyatlarda ələltılarına inana bilmirdi. Buna görə, təşkilatın ən elitar birliyi olan "Kidon" (Süngü) Türkmənistan və Azərbaycan üzərindən İrana sızaraq hücumları özü həyata keçirdi. İsrail rəsmilərinin bayraqdakı rənglərdən götürərək, "mavi-ağ" adını verdiyi əməliyyatlarda casuslar barmaq izi qoymadan ölkədən çıxmağı bacardılar.

Meir Daqan "Kidon"un həyata keçirdiyi sui-qəsdlərin nüvə fizikinin az olduğu ölkədə nüvə silahı fəaliyyətlərinə zərbə vurduğunu deyib. Amma İranın nüvə proqramının hansı mərhələdə olduğu hələ də müəmmalıdır.

İsrail Tehranın bu il ərzində nüvə silahı yaradacağını söyləyir. "New York Times" qəzeti isə ABŞ kəşfiyyatının İranın nüvə proqramlarını dayandırdığını düşündüyünü yazıb.

İsrail Suriyadakı bazanı necə partlatdı?

Suriyanın Şimali Koreyanın köməyi ilə tikdiyi və nüvə bazası olduğu iddia edilən bir bina 2007-ci ildə sirli şəkildə partladıldığı zaman bütün dünya bunu İsrailin etdiyinə inanırdı. İsrail isə hər zamankı kimi səssiz qalırdı.

Raviv və Melmanın yazdığı kitabda həmin binanın bombalanması fikri ilk dəfə 2007-ci ilin martında ortaya atılmışdı. MOSSAD-ın əlinə binanın içindən çəkilmiş və nüvə araşdırmaları apardığını isbat edən gizli fotolar keçmişdi. İsrail mütəxəssisləri fotoları araşdırdıqdan sonra belə qənaətə gəlmişdilər ki, binadakı nüvə reaktoru bir neçə aydan sonra işə düşəcək.

MOSSAD rəhbəri Meir Daqan bundan sonra Vaşinqtona gedərək, əlindəki məlumatları buradakı həmkarlarına göstərdi. O vaxt İstrailin baş naziri olan Ehud Olmert də həmin ilin iyununda Ağ Evdə Corc Buşla görüşündə, "Corc, səndən buranı bombalamağını istəyirəm" demişdi. Buş isə bir neçə həftə sonra diplomatik yollardan istifadə etmək istədiyini bildirmişdi. İsrail tək hərəkət etməsinin vacibliyini anlamışdı.

O gündən etibarən Ehud Olmertin rəhbərliyi ilə toplanan 14 nəfərlik Şura vəziyyəti müzakirə etdi. Hərbi əməliyyat olduqca riskli idi. Amma vaxt da az idi. Çox vaxt itirəcəkləri təqdirdə reaktor işə salına və onun partladılması Fərat çayının keçdiyi bütün ölkələr üçün faciə törədə bilərdi. Məhz buna görə, hava bombardmanına qərar verildi.

2007-ci ilin iyulun 6-da İsrail hakerləri Suriyanın radarlarını bir virusla sıradan çıxardılar. İsrail təyyarələri Suriya hava məkanına girib binanı bombaladıqları zaman Dəməşqdəki rəsmilərin ekranlarında hər şey normal göstərirdi. Səkkiz F-16-nın qatıldığı əməliyyat 30 dəqiqə ərzində sakit şəkildə bitdi.

Lakin İsrail pilotunun təyyarənin yanacaq bidonlarından birini atması və həmin bidonun Türkiyənin Gaziantep şəhəri yaxınlığında tapılması bombardmanın Türkiyə ərazisindən aparıldığı göstərdi.

**MOSSAD-ın ən elitar birliyi**

Təşkilat iranlı alimləri öldürmək üçün özünü ən yaxşı cəsuslarından olan "Kidon" birliyinə təlimat verirdi.

İsrail ordusu və kəşfiyyatının ən yaxşıları arasından, uzun psixoloji testlərdən keçdikdən sonra seçilən 50-yə qədər casusdan ibarət komandanın varlığı rəsmi olaraq bu günə kimi qəbul olunmayıb. MOSSAD rəsmiləri ilə belə qondarma adlardan istifadə edərək danışan bu casuslar hərəkət etdikləri zaman əllərini tərpətmədən silahdan istifadə edə bilirlər.

Kitabda yazılanlara görə, 1949-cu ildə qurulan MOSSAD indiyə qədər 50-yə yaxın sui-qəsd törədib.

Yazarlar İsrailin bu günə qədər yüzlərlə insanı öldürdüyünü, ancaq bunların əsasən hərbi birləşmələr tərəfindən həyata keçirildiyini, MOSSAD-ın isə olduqca az sui-qəsd törətdiyini bildiriblər. Meir Daqan isə ən çox sui-qəsd əmri verən direktor oldu.

**Qeydlər**

Kitaba görə, MOSSAD-ın Yaxın Şərqdəki ən yaxın müttəfiqi kürdlərdir. Təşkilatın müxtəlif ölkələrdə kürdlərdən Yaxın Şərq siyasətində güclü şəkildə istifadə etdiyini yazan Raviv və Melman MOSSAD-ın 60-cı illərdə Şimali İraqdakı kürd peşmərgələrə təlim keçdiyini iddia ediblər. Bundan başqa, müəlliflər MOSSAD-ın regiondakı kürd liderlərlə yaxın əlaqəsinin olduğunu deyiblər.

İsrail İrana nüvə satmaq istəyirmiş?

İran Pəhləvilər dövründə nüvə enerjisi qurmaq üçün ABŞ-dan dəstək istəyirdi. İsrail və İran arasındakı münasibətlərin yaxınlaşmasından sonra o zaman Müdafiə Nazirliyində işləyən indiki İsrail prezidenti Şimon Perez şaha nüvə texnologiyasını təklif etmişdi. Lakin şah "İsrailin yardımına ehtiyacımız yoxdur" deyərək təklifi rədd etmişdi.

**Əl Baradeyə bank tələsi**

MOSSAD İrana təzyiqi artırmaq üçün 1997-2009-cu illərdə Beynəlxalq Atom Enerjisi Təşkilatına rəhbərlik edən Məhəmməd əl Baradeyə təzyiq edirdi. Əl Baradeyi isə qurumun müstəqilliyini qorumaq üçün müqavimət göstərirdi.

MOSSAD onu ələ almaq üçün bank hesabına külli miqdarda pul köçürməyə qərar verdi. Daha sonra mətbuata məlumat sızdıraraq İrandan rüşvət aldığını ortaya atacaqdı. Ancaq həmin vaxt Baradeyinin sərt mövqeyi planı təxirə saldı.

***Anar Əhmədov***
***Publika.Az***

# “Suriya erməniləri özlərini Qarabağda baş verə biləcək təhlükəyə atmayacaqlar”

Ankara İqtisadiyyat və Texnologiyalar Universitetinin professoru, politoloq Toğrul İsmayılla müsahibə:

- Toğrul bəy, ilk sualımıza ondan başlayaq ki, Suriyada Əsəd hakimiyyətinin getməsindən sonra, ölkənin siyasi coğrafiyasında parçalanma gözlənilirmi?

Çünki bəzi analitiklər Suriyada Kürdüstan dövlətinin yaranacağını proqnozlaşdırırlar. Ümumiyyətlə, bu fikri nə qədər real hesab etmək olar?

- Bu, əslində hər kəsi maraqlandıran bir sualdır. Təbii ki, Əsəd rejimindən sonra Suriyanın parçalanma ehtimalı olduqca yüksəkdir. Buna səbəblərdən biri də Suriyanın həm etnik, həm də dini nöqteyi-nəzərdən quruluşa sahib olmasıdır.

Lakin unutmamaq lazımdır ki, vəziyyət elə bir hal almışdır ki, artıq məsələ sadəcə orada yaşayan xalqın deyil, bütün dünyanın probleminə çevrilmişdir. Buna görə də Əsəd sonrası Suriyanın taleyinin necə olacağı daha ziyadə, böyük güclərin və bölgəsəl aktyorların ortaq qərarından sonra müəyyən bir şəkil alacaq. Hələlik orada vəziyyət olduqca dramatikdir.

Yaranmış vəziyyətdən ölkə daxilindəki bəzi etnik qruplar xüsusilə də kürdlər yararlanmağa çalışır. Hazırkı vəziyyətdə onların bəlli bölgələrə hakim olduğu bəyan edilir. Bu, müvəqqəti haldır. Burada Türkiyənin mövqeyi çox vacibdir.

Türkiyənin istər baş naziri, istərsə də xarici işlər naziri Suriyada bir kürd dövlətinin daha doğrusu PKK-PYD işbirliyinin reallaşmasına qarşı olduğunu ifadə etmişlər. Şimali İraq regional kürd idarəçiliyinin Suriyadakı kürdlərə hərbi hazırlıq yardımı etməsi isə, rəsmi Ankaranı daha ciddi atmağa məcbur etməkdədir.

Davudoğlunun Şimalı İraqa ziyarətindən sonra Türkiyənin Suriyadakı kürdlərlə bağlı mövqeyi daha da qətiləşəcək.

Burada Türkiyənin hər an öz sərhədlərinə yaxın Suriya ərazilərinə müdaxiləsi ehtimalı da artmaqdadır. Bəzi ekspertlər Türkiyənin ətrafında baş verən hadisələri keçən əsrin 20-ci illərində baş verən hadisələrə çox bənzədirlər. Hətta, Türkiyənin parçalanma ehtimalının olduqca yüksək olduğunu söyləyirlər.

Əlbəttə, bütün ehtimallar hər zaman göz önündə tutulmalıdır. Lakin indiki şəraitdə Türkiyənin parçalanması imkansızdır. Çünki belə bir hadisə bölgəni daha ciddi xaosa sürükləyə bilər. ABŞ və Qərbin hazırda bölgədəki əsas müttəfiqini itirmək istəyəcəyini zənn etmirəm.

- Bəs, Suriyada baş verən proseslər Türkiyə üçün nələr vəd edir?

- Suriyadakı proseslər Türkiyəni yaxından maraqlandırır. Suriya Türkiyənin ən uzun sərhədə malik olan qonşusudur. Son dönəmlərdə ikili münasibətlərin yaxşılaşması ilə, iki ölkə arasında ticarətin həcmi də artmışdı. Həm də Türkiyə bölgə ölkələrlə ticarətini bu ölkə üzərindən tranzit olaraq gerçəkləşdirməkdədir.

Lakin Suriyadakı olaylar iki ölkə arasındakı ticarətə böyük zərbə vurmuş, təxminən 80% geriləmə baş verib, bu ölkədə Türkiyə maşınları yandırıldıqdan sonra isə iki ölkə bir çox gömrük qapılarını bağladıqdan sonra, geriləmə daha da sürətlə baş verməyə başladı.

Eyni zamanda bunu da qeyd etmək lazımdır ki, bu ölkədə müəyyən bölgələrdə Türkiyə ilə bağlarını itirməyən türkmənlər yaşamaqdadır. Onların taleyinə də Türkiyə biganə qala bilməz.

Yuxarıda da qeyd etdiyimiz kimi, Türkiyənin sərhədinə yaxın bölgələrdə baş verə biləcək hər hansı yeni bir dəyişiklik, xüsusilə bir kürd dövlətinin təşkili Türkiyənin strateji baxımından həssaslığını önə çıxarmaqdadır. Bütün



bunlar göz önündə tutaraq onu qeyd etmək olar ki, Türkiyə baş verən hadisələrə biganə qala bilməz və qalması mümkün deyil.

Bütün bu söylədiklərimizə türk təyyarəsinin Suriya tərəfindən vurulmasını unutmamaq lazımdır. Türkiyə rəhbərliyi dəfələrlə Əsədin bu hadisələr qarşısında hakimiyyətdən imtina etməsinin bəyan etmişdir. Zaman ətrafında baş verə biləcək hər hansı müharibəyə və silahlı münaqişəyə qarşı olduğunu həm sözlə, həm də əməli olaraq göstərməyə çalışmışdır.

Lakin Suriyadakı vəziyyət artıq nəzarətdən çıxmış və bununla da tərəflər arasında yaxınlaşma imkansız hala gəlib.

Türkiyənin tələbi də bir an öncə Əsədin hakimiyyətini buraxması, yeni seçkilər keçirilərək xalq hakimiyyətinin qurulması və ölkənin bir an öncə sabitliyə nail olmasıdır. Suriyanın parçalanması və ya orada hər hansı bir siyasi və inzibati dəyişiklik hazırda Türkiyənin maraqlarına cavab verməməkdədir.

- Digər məlumat isə Suriyada yaşayan ermənilərin Dağlıq Qarabağa köçürülməsi ilə bağlı yayılan xəbərlərdir. Əgər, bu proses başlanarsa, bölgədə vəziyyət gərginləşə bilərmi?

- Əslində belə bir xəbərin yayılması təsadüfi deyil. Hələ Sovetlər dönəmində 1948-ci ildə SSRİ Nazirlər Kabinetinin qərarı ilə Ermənistan ərazisində dədə-baba torpaqlarında yaşayan Azərbaycan türkləri sürgün edilərkən, onların yerinə Suriyada və digər bölgələrdə yaşayan ermənilərin köçməsi nəzərdə tutulurdu.

Lakin o zaman istənilən sayda erməni gəlmədi. Doğrudur, Suriyadakı hazırkı vəziyyət orada yaşayan ermənilərin başqa ölkələrə və yerlərə köç etməyə məcbur edir.

Hesab edirəm ki, rahat Avropa ölkələri və Amerika olduğu halda ermənilərin kütləvi şəkildə Dağlıq Qarabağ ərazisinə yerləşəcəklərini düşünmürəm. Çünki ağlı başında olan hər kəs Azərbaycanın Dağlıq Qarabağdan vaz keçməyəcəyini bilir və hazırkı vəziyyətin müvəqqəti olduğunu başa düşür. Erməni tərəfi Dağlıq Qarabağda bir müstəqil dövlət olduğunu və onun demokratik quruluşa sahib olduğunu bəyan etsə də, hazırda dünya bu əraziləri Azərbaycan torpaqları olaraq görməkdədir.

Bu da bilinən bir faktdır ki, hazırda danışıqlar prosesi nəticəsiz olsa da yenə də davam edir. Lakin bu proses əvvəl-axır bir nəticəyə bağlanmalıdır. Əks halda bölgədə hər an silahlı münaqişə yenidən başlaya bilər. Bunu ermənilər də çox yaxşı başa düşürlər.

Rəsmi İrəvan Qarabağda erməni əhalisinin sayını artırmağa çalışsa da, Ermənistandan kənarda yaşayan suriyalı ermənilərin özlərini yeni bir təhlükəyə atacaqları ehtimalı olduqca az görünür.

- Əgər, bu fakt öz gerçəkliyini taparsa və ya ümumiyyətlə, Ermənistan hakimiyyəti bu yolla Dağlıq Qarabağın demoqrafik vəziyyətini öz xeyrinə dəyişməsi mümkündürmü?

- Ermənilər sistemli şəkildə Azərbaycan türklərinə qarşı etnik təmizləmə və soyqırımı siyasəti aparmışlar. Zəngəzur və Göyçə mahalının sövet dönəmində Azərbaycandan qoparılaraq Ermənistana peşkəş edilməsi, sistemli olaraq Ermənistan ərazisindən Azərbaycan türklərinin sürgün edilməsi, ən son 1988-ci ildə 300 mindən artıq soydaşımızın tarixi vətənlərindən qovulması, sadəcə Dağlıq Qarabağı deyil, Azərbaycanın daha 7 rayonunu da işğal edərək oradakı vəziyyəti ermənilərin xeyrinə ciddi şəkildə dəyişdirilmişdir.

Ona görə təsadüfi deyil ki, Azərbaycan tərəfi danışıqlarda məcburi köçkünlərin yurdlarına geri dönməsi məsələsinin gündəmə gətirməkdədir. Ermənistan Dağlıq Qarabağda ermənilərin köçməsinin qarşısını çətinliklə alır. Xatırladaq ki, Ermənistanın özündən erməni əhalinin başqa ölkələrə köçü çox ciddi hal almışdır.

O zaman Ermənistandan daha ağır iqtisadi vəziyyətdə olan, Dağlıq



**Toğrul İsmayıl**

Qarabağ ermənilərinin hansı şərtlərlə orada tutulduğunu anlamamız mümkündür. Erməni tərəfinin tək çıxış yolu Azərbaycanla barışın əldə olunmasında keçir.

Əgər ermənilər bu ərazilərdə yaşamaq istəyirlərsə, bir an öncə qonşuları ilə dil tapmalı və onlarla birgə yaşamanın yollarını özləri üçün həll etməlidirlər. Əks halda Azərbaycan türklərinin ifadə etdiyi kimi, “sirkə nə qədər tünd olarsa, öz qabını qırar” məsələ gündəmə gələcək. Yəni, erməni siyasətçiləri” də öz xalqının yeni faciələrdən qurtarmaq üçün dinc, yanaşı yaşamaq prinsipini də öyrənib həyata keçirməlidirlər.

Erməni tərəfinin aqressiv işğalçı siyasəti bölgəmizin gələcəyi üçün ən böyük təhlükə olmuşdur və bu hələ də davam etməkdədir. Bu da heç kimsəyə sirr deyil.

***dak.az***



## Türkiyədə Kərkük-Yumurtalıq neft kəmərində partlayış olub

